QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 056 (6256) 2 aprel 2021-ci il **Qiyməti 40 qəpik** "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Qarabağ zəfərinin başlanğıc nöqtəsi: Aprel müharibəsindən 5 il ötür



2016-cı il aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı. Bu, aprel döyüşləri kimi qeydə...

Bax 8

# Azərbaycan və Türkiyəni tarixi qardaşlıq telləri bağlayır

*Prezident İlham Əliyev "Baykar" şirkətinin texniki direktorunu və "ASELSAN" şirkətinin idarə heyətinin rəhbərini qəbul edib*



Bax 2

## Bayraktar: "Qarabağ məsələsi içimizdə yara idi"



Pilotsuz uçuş aparatların tanınmış mütəxəssisi, əfsanəvi "Bayraktar" hərbi dronlarının yaradıcısı Selçuk Bayraktar Bakıdadır. SİA xəbər verir ki, o, Azərbaycan Televiziyasına eksklüziv müsahibə verib. "Gənclik illərimizdə Qarabağ məsələsi içimizdə yara idi. Bu yara 30 il idi...

Bax 6

## Şuşanı fəth edən qəhrəmanlar canlı yayımda




## Məktəblər bağlandı, yeni qadağalar ola bilər?

Məktəblərin bağlanması infeksiyanın yayılmasının qarşısının alınması yollarından biridir. Əsas məqsəd odur ki, insanlar bir-biri ilə az təmasda olsunlar. Bunu "İki sahil"ə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü Musa Quliyev deyib. M.Quliyev bildirib ki, koronavirusun yeni...



Bax 10

## Ermənilər Xankəndindən qaçır - Türk liderlər Qarabağa gedir




## Ermənistan minalanmış ərazilərin xəritələrini Azərbaycana niyə təhvil verməlidir?




Bax 6

## Paşinyan bu gün istefa verir və siyasətdən gedir?



Bax 13

## İlan zəhəri hansı xəstəliyə dərmandır?



Bax 16

# Azərbaycan və Türkiyəni tarixi qardaşlıq telləri bağlayır

*Prezident İlham Əliyev "Baykar" şirkətinin texniki direktorunu və "ASELSAN" şirkətinin idarə heyətinin rəhbərini qəbul edib*







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarı və "ASELSAN" şirkətinin idarə heyətinin rəhbəri və baş direktoru Haluk Görgünü qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Selçuk Bayraktar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Prezident İlham Əliyevi Vətən müharibəsindəki Qələbə münasibətilə təbrik etdi, şəhidlərimizin xatirəsini andı.

Rəcəb Tayyib Ərdoğanın salamlarına görə təşəkkürünü bildirən Prezident İlham Əliyev onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Vətən müharibəsi zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkiyə xalqının Azərbaycana dəstəyini xüsusi vurğuladı. Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının martın 31-də keçirilən Zirvə görüşündə Türkiyə Prezidentinin Azərbaycanı bu Qələbə münasibətilə bir daha təbrik etməsini yüksək qiymətləndirdi.

Türkiyənin müdafiə sənayesinin əldə etdiyi nailiyyətlərə toxunan Prezident İlham Əliyev Selçuk Bayraktarın bu uğurların önündə getdiyini vurğuladı, "Baykar" şirkətinin istehsal etdiyi məhsulların torpaqlarımızın azad olunması zamanı düşmən texnikasının məhv edilməsindəki rolunu qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanla Türkiyə arasında qardaşlıq əlaqələrinin gücləndirilməsinə, əməkdaşlığın inkişafına, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin təmin olunması istiqamətindəki haqq işinə verdiyi töhfəyə görə Selçuk Bayraktarın "Qarabağ" ordeni ilə təltif edildiyini bildirdi və ordeni Selçuk Bayraktara təqdim etdi.

Bu yüksək mükafata görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Selçuk Bayraktar dedi: "Həqiqətən də bu, mənim üçün böyük bir qürur və şərəfdir".

# Azərbaycan və Rusiya Prezidentləri arasında telefon danışığı olub

**Aprelin 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.**



Telefon söhbəti zamanı Dağlıq Qarabağ ətrafında yaranmış vəziyyət müzakirə olunub. Vəziyyətin bütövlükdə sabit olmasından, atəşkəs rejiminə dönmədən riayət edilməsindən məmnunluq ifadə edilib.

Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçukun Bakıda apardığı danışıqlar nəzərə alınmaqla, Cənubi Qafqazda iqtisadi əlaqələrin və nəqliyyat kommunikasiyalarının nizamlanması üzrə Rusiya, Azərbaycan prezidentlərinin və Ermənistan baş nazirinin 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatlarına müvafiq olaraq aparılan işlərin gedişi nəzərdən keçirilib. Bu kontekstdə üç ölkənin Baş nazirləri müavinlərinin həmsədrliyi ilə işçi qrupunun fəaliyyəti müsbət qiymətləndirilib.

İkitərəfli gündəlikdəki bir sıra aktual məsələlərə, o cümlədən koronavirus pandemiyasına qarşı mübarizədə əməkdaşlıq məsələlərinə toxunulub. Hər iki tərəfin Azərbaycan-Rusiya strateji tərəfdaşlığının möhkəmləndirilməsini, qarşılıqlı faydalı layihələrin inkişafını davam etdirmək əzmi təsdiqlənib. Əlaqələrin davam etdirilməsi barədə razılıq əldə edilib.

# "Dünyada peyvəndlərin bölüşdürülməsində müşahidə edilən ayrıseçkilik məyusluq yaradır"

*Azərbaycan Prezidenti İlham Əliyevin Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru ilə videokonfrans formatında görüşü olub*

Aprelin 1-də Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşkilatın Baş direktoru Tedros Adhanom Qebreyesusla videokonfrans formatında görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Ümumdünya Səhiyyə Təşkilatının Avropa Bürosunun sədri Hans Klüqe və təşkilatın digər rəhbər nümayəndələri iştirak ediblər.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus Azərbaycanın təşkilata bütün sahələrdə, o cümlədən maliyyə sahəsində 10 milyon dollar dəyərində etdiyi yardımı yüksək qiymətləndirərək ölkəmizin Ümumdünya Səhiyyə Təşkilatına siyasi və mənəvi dəstəyinin çox dəyərli olduğunu qeyd etdi.



Prezident İlham Əliyev pandemiya ilə mübarizə istiqamətində ölkəmizdə görülən işlərdən danışdı, bu sahədə Azərbaycanın beynəlxalq əməkdaşlığa verdiyi töhfələri qeyd etdi. Ölkəmizin təşəbbüsü ilə BMT Baş Assambleyasının koronavirus xəstəliyi ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının, Türk Şurasının fövqəladə Zirvə görüşünün keçirildiyini bildirdi. Martın 21-də isə BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamənin qəbul edildiyini vurğuladı.

Dövlətimizin başçısı dünyada pandemiyaya qarşı mübarizənin əhəmiyyətinə toxunaraq peyvənd millətçiliyi ilə bağlı ictimaiyyətə açıqlamalar verdiyini, bəzi ölkələrin tələb olunandan daha çox peyvənd sifariş etdiyini, bəzi ölkələrin isə ciddi problemlərlə üzləşdiyini bildirdi. Prezident İlham Əliyev peyvəndlərin ədalətli şəkildə bölüşdürülməsində müşahidə edilən ayrıseçkiliyin məyusluq yaratdığını diqqətə çatdırdı.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus COVAX təşəbbüsü çərçivəsində ən qısa zamanda 84 min "AstraZeneca" peyvəndinin Azərbaycana göndəriləcəyini dedi. Prezident İlham Əliyev bununla bağlı təşəkkürünü bildirdi.

# “Biz islahatları davam etdirəcəyik”

*Prezident İlham Əliyev Dünya Bankının regional direktorunu qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Dünya Bankının regional direktoru Sebastian Molineusu qəbul edib. AZƏRTAC xəbər verir ki, Dünya Bankının regional direktorunu salamlayan Prezident İlham Əliyev dedi:**

- Xoş gəlmisiniz, sizi görməyə çox şadam.

Sebastian Molineus: Mən də Sizi görməyə şadam. Nəhayət, Azərbaycana - Bakıya yenidən dönmək və Sizi görmək çox xoşdur.

Prezident İlham Əliyev: Sizi bir daha gördüyümə çox şadam. Bilirəm ki, sizin məşğul proqramınız var.

Sebastian Molineus: Elədir ki, var. Təsəvvür edirəm ki, Sizin cədvəliniz mənimkindən daha çox məşğuldur. Odur ki, bizi qəbul etmək üçün vaxt ayırdığınıza görə Sizə təşəkkür edirəm.

Prezident İlham Əliyev: Gələcək əməkdaşlığımızla bağlı fikir mübadiləsi aparmaq, birgə addımlarımızı planlaşdırmaq üçün yaxşı fürsətdir. Çünki bu vaxta qədər əməkdaşlıq çox uğurlu olmuşdur. Mən elə indicə məlumata baxdım. Biz 47 layihə həyata keçirmişik və onların bəziləri hələ icra mərhələsindədir. Ümumi paket təxminən 4 milyard ABŞ dolları təşkil edir. Bizim inkişafımızın çox vacib sahələrinə, infrastruktura göstərdiyiniz dəstəyə görə sizə minnətdarlığımı ifadə etmək istəyirəm. Eləcə də, TANAP-ın maliyyələşdirilməsi ilə bağlı verdiyiniz dəstəyə görə sizə xüsusi təşəkkürümü bildirirəm. Bu da maliyyə baxımından, həm də digər maliyyə institutları müəyyən siqnalın verilməsi baxımından çox önəmli idi. Çox şadam ki, artıq layihənin açılışı olmuşdur. Cənub Qaz Dəhlizi tam olaraq 3 aydır ki, fəaliyyət göstərir və bu, yalnız başlanğıcdır. Əlbəttə ki, biz “Doing Business” proqramında mövqeyimizi yaxşılaşdırmağımızla çox fəxr edirik. Biz 191 ölkə arasında 28-ci mövqedəyik. Bu, bizim üçün həqiqətən də mühüm nailiyyətdir. Lakin əlbəttə ki, biz islahatları davam etdirəcəyik və mən əminəm ki, görüşümüzdə biz bunu müzakirə edəcəyik. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə yeni imkanlar var. Orada infrastrukturun inkişafına böyük ehtiyac var. Çünki bütün infrastruktur dağıdılmışdır və insanları qaytarmaq üçün biz, əlbəttə ki, minalardan təmizləmə işlərini, sonra isə yenidənqurma işlərini həyata keçirməliyik. İnfrastruktur layihələri olmadan məcburi köçkünləri və qaçqınları qaytarmaq mümkün olmayacaq. Odur ki, biz bu məsələlərdə də Dünya Bankı ilə əməkdaşlığa güvənirik.

Sebastian Molineus: Əvvəla, bizimlə görüşmək üçün vaxt ayırdığınıza görə çox sağ olun. İcazə verin, Sizi gec də olsa Novruz bayramı münasibətilə təbrik edim. Ümid edirəm ki, bayramı ailənizlə keçirmək imkanınız olub. Bir daha qeyd etmək istəyirəm ki, yenidən burada olduğuma görə çox böyük sevinc hissi keçirirəm. Pandemiyanın baş qaldırmasından bir il keçib və xoşbəxtlikdən biz geri qayıda bildik.

Prezident Əliyev əvvəla, Sizə Azərbaycan üzrə yeni ölkə menecerimiz Sara Mayklzı təqdim etmək istəyirəm. Əlbəttə ki, Siz onu yaxşı tanıyırsınız. Sara ölkə üzrə yeni menecer olacaq. O, növbəti dörd ildə burada olacaq. Hesab edirəm ki, o, əla seçimdir, əgər belə deyə bilərəmsə. Siz bunu tezliklə görəcəksiniz. O, Azərbaycan Hökuməti və Dünya Bankı arasında əməkdaşlığı daha da təkmilləşdirmək üçün özü ilə bütün keyfiyyət və atributları gətirir.

Prezident İlham Əliyev: Sizə burada yaxşı vaxt keçirməyi arzulayıram.

X X X

Söhbət zamanı Dünya Bankının regional direktoru Sebastian Molineus Azərbaycanda iqtisadi sahədə gedən proseslərin və ölkəmizlə əməkdaşlığın önəmini vurğuladı, Azərbaycan Prezidentinin islahatlar siyasətini yüksək qiymətləndirdi. Görüşdə strateji istiqamətlərdə əlaqələrin və Dünya Bankı ilə Azərbaycan arasında uğurlu əməkdaşlığın davam etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Hökuməti sədrinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuku qəbul edib. AZƏRTAC xəbər verir ki, Rusiya Hökuməti sədrinin müavinini salamlayan Prezident İlham Əliyev dedi:**

-Sizi yenidən görməyimə şadam. Xoş gəlmisiniz. Üçtərəfli işçi qrupu çərçivəsində işlər uğurla gedir. Çox intensiv məsləhətləşmələr aparılır. Bu məsələ barədə mənə vaxtaşırı məruzə edirlər. Şadam ki, qəbul edilmiş qərarın düzgün olması təsdiqlənir, ən başlıcası, artıq konkret nəticə var.

Bildiyimə görə, artıq həm əyani, həm də videokonfrans formatında beş iclas keçirilib. Beləliklə, müzakirə üçün mövzu var və bu mövzu həm iqtisadi preferensiyalar, həm regional əməkdaşlıq, həm də bizim regionda təhlükəsizliyin və sülhün möhkəmlənməsi baxımından vacibdir. Xüsusən ona görə ki, münaqişədən sonrakı dövrdə vəziyyət bütövlükdə müsbət istiqamətdə inkişaf edir, eskalasiya riskləri minimaldır. Təbii ki, əməkdaşlıq elementləri nə qədər çox olsa, təhlükəsizlik və sabitlik də bir o qədər möhkəm olacaq. Ona görə də biz bu gün həmin məsələləri müzakirə edəcək, sonrakı addımlarımızı və fəaliyyətimizi planlaşdıracağıq. Bir daha xoş gəlmisiniz.

Rusiya Hökuməti sədrinin müavini Aleksey Overçuk:

-Sağ olun, hörmətli İlham Heydər oğlu. Sizinlə görüşmək, regionda iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üzrə Baş nazirlərin müavinlərinin üçtərəfli işçi qrupu çərçivəsində aparılan işləri müzakirə etmək imkanına görə təşəkkürümü bildirmək istəyirəm. Siz qeyd etdiyiniz kimi, biz həm əyani, həm də videokonfrans rabitəsi rejimində beş dəfə görüşmüşük. Həqiqətən işimizdə müəyyən tərəqqi var və sıx əlaqəli şəkildə işləyirik. Biz həm Azərbaycan tərəfi, həm də Ermənistan tərəfi ilə daim əlaqədəyik. Həqiqətən burada çox yaxşı əlaqə yaradılıb.



# Moskvada Azərbaycanın və Rusiyanın xarici işlər nazirlərinin görüşü olub

Aprelin 1-də MDB ölkələrinin xarici işlər nazirləri Şurasının iclasında iştirak etmək məqsədilə Moskvada işçi səfərdə olan Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Rusiyanın xarici işlər naziri Sergey Lavrov ilə görüşü keçirilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hər iki tərəfdən nümayəndə heyətlərinin iştirak etdiyi görüşdə ikitərəfli əməkdaşlıq münasibətləri, mövcud regional vəziyyət, üçtərəfli bəyanatların həyata keçirilməsi məsələlərinə dair ətraflı müzakirələr aparılıb. Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında mövcud olan dialoqunun səviyyəsindən məmnunluq ifadə edilib.

Görüşdə, həmçinin qarşılıqlı maraq kəsb edən beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Zirvə görüşü Azərbaycanın beynəlxalq aləmdə böyük nüfuza malik olmasının göstəricisidir



## Prezident İlham Əliyev: "Zirvə görüşləri müntəzəm olaraq keçirilir və əlbəttə ki, üzv ölkələr arasındakı birliyə bunun çox böyük müsbət təsiri vardır"

**Ulu Öndər Heydər Əliyev dərin tarixi köklərə malik Türkdilli dövlətlər və xalqlar arasında sıx əlaqələrin qurulmasına, onların inkişafına hər zaman dəstək göstərib. Dahi rəhbər Azərbaycanın beynəlxalq aləmdə, o cümlədən eyni mədəni və dini köklərə malik türkdilli dövlətlər arasında münasibətlərin ən yüksək səviyyədə qurulmasını, ümumtürk həmrəyliyinin təmin olunmasını prioritet sayıb, daima diqqət mərkəzində saxlayıb.**

Ümummilli Liderin əsasını qoyduğu və bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasət, regionda irimiqyaslı layihələrin reallaşdırılması türk dünyası ölkələri arasında birliyin, əlaqələrin möhkəmlənməsinə xidmət edir. Həmçinin, sevindirici haldır ki, bu gün Azərbaycan qalib ölkə kimi dünya dövlətləri tərəfindən qəbul edilməklə yanaşı, həmçinin, türkdilli dövlətlərlə monolit birliyə malikdir. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət, diplomatik siyasətinin reallığıdır.

Martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında qeyri-formal keçirilən Zirvə görüşündə Prezident İlham Əliyev çıxışı zamanı müntəzəm olaraq keçirilən bu görüşlərin üzv ölkələr arasındakı birliyə çox böyük müsbət təsiri olduğunu və ilin sonunda Azərbaycan, Türk Şurasındakı sədrliyini qardaş Türkiyəyə təhvil verəcəyini bildirib.

### "İlin sonunda Azərbaycan Türk Şurasındakı sədrliyini qardaş Türkiyəyə təhvil verəcək"

Prezident İlham Əliyev martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında qeyri-formal Zirvə görüşündə çıxışı zamanı bildirib ki, belə görüşlər ölkələrimiz arasında birliyini daha da möhkəmlənməsinə təsiri olur: "İlk növbədə, Zirvə görüşünün keçirilməsi ilə bağlı irəli sürdüyü təşəbbüsə görə Nursultan Abışoviç Nazarbayevə təşəkkürümü bildirmək istəyirəm. Nursultan Abışoviç Nazarbayev Türk Şurasının fəxri sədri kimi çox fəal iş aparır və bu Sammitin keçirilməsi bunun bariz təsdiqidir.

Bugünkü Zirvə görüşü 2019-cu ilin oktyabrında Bakıda keçirilmiş Zirvə görüşündən sonra ikinci Zirvə görüşüdür. Bir il əvvəl, keçən ilin aprel ayında Bakıda Azərbaycanın təşəbbüsü ilə COVID-19-a həsr edilmiş Zirvə görüşü keçirilmişdir və bu, özlüyündə bir göstəricidir. Göstərir ki, Zirvə görüşləri müntəzəm olaraq keçirilir və əlbəttə ki, üzv ölkələr arasındakı birliyə bunun çox böyük müsbət təsiri vardır.

Bu ilin sonunda Azərbaycan, Türk Şurasındakı sədrliyini qardaş Türkiyəyə təhvil verəcək. Türkiyədə keçiriləcək rəsmi Zirvə görüşündə Azərbaycanın sədrliyi dövründə gördüyü işlərlə bağlı məlumat veriləcəkdir".

### "Beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini daim dəstəkləyiblər"

Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə çıxışı zamanı 30 ilə yaxın müddət ərzində Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazilərinin işğal altında qaldığını vurğulayaraq deyib: "Bu işğal nəticəsində torpaqlarımızın təxminən 20 faizi Ermənistan tərəfindən zəbt edilmişdir, bir milyondan çox azərbaycanlı öz doğma torpağından didərgin salınmışdır, qaçqın-köçkün vəziyyətinə salınmışdır. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Ermənistan Azərbaycana qarşı soyqırımı törətmişdir. 1992-ci ildə törədilən Xocalı soyqırımı nəticəsində 600-dən çox günahsız, dinc insan vəhşicəsinə öldürülmüşdür. Onların arasında 106 qadın, 63 uşaq vəhşicəsinə qətlə yetirilmişdir".

Azərbaycan Prezidenti qeyd edib ki, beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini daim dəstəkləyiblər: "Ancaq bu dəstəyin praktiki həyatda o qədər də böyük əhəmiyyəti yox idi. Çünki məsələ öz həllini tapmırdı. BMT Təhlükəsizlik Şurası - dünyanın ali beynəlxalq qurumu 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilirdi. Bu qətnamələr 1993-cü ildə qəbul edilmişdir və icrasız qalmışdı. Digər beynəlxalq təşkilatların qərar-qətnamələri Azərbaycanın mövqeyini dəstəkləyirdi və bunun çox böyük siyasi və hüquqi mənası var idi", - deyə dövlətimizin başçısı xatırladıb.

### "Minsk "Qrupunun 28 illik fəaliyyəti sıfıra bərabər olub"

"Münaqişənin həlli ilə bağlı yaradılmış ATƏT-in Minsk qrupu 28 il ərzində fəaliyyət göstərsə də, nəticə sıfıra bərabər olub. Halbuki Minsk Qrupuna həmsədrlik edən ölkələr dünyanın aparıcı ölkələridir, nüvə dövlətləridir, BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Əlbəttə ki, Ermənistana qarşı işğalla bağlı ciddi təzyiq göstərilsəydi və Azərbaycanın tələbi nəzərə alınıb sanksiyalar tətbiq edilsəydi, məsələ çoxdan sülh yolu ilə öz həllini tapa bilərdi".Bu fikirləri Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilən qeyri-formal Zirvə görüşündə çıxışında söyləyib.

Dövlət başçısı bildirib ki, əfsuslar olsun ki, bu, baş vermədi: "Əksinə, məsələnin dondurulması istiqamətində addımlar atılmışdır. Ermənistan faktiki olaraq danışıqlardan imtina etmişdir. Əgər əvvəlki illərdə danışıqların imitasiyası ilə məşğul idisə, son iki-üç il ərzində faktiki olaraq açıq, nümayişkaranə şəkildə bildirirdi ki, bir qarış da Azərbaycan torpağı Azərbaycana qaytarılmayacaq".

### "Qondarma "Dağlıq Qarabağ respublikası"nın qondarma parlamentinin Şuşadakı binası sökülәcək"

"Digər təxribat xarakterli addımlardan biri də qədim Azərbaycan şəhəri, bizim mədəni paytaxtımız olan Şuşada qanunsuz xunta rejiminin, keçmiş Dağlıq Qarabağ rejiminin başçısının andiçmə mərasiminin keçirilməsi idi. Bu, Azərbaycan xalqına qarşı təhqir idi".Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında Zirvə görüşündə çıxışı zamanı deyib.

Azərbaycan Prezidenti bildirib ki, qondarma parlamentinin Şuşadakı binası sökülәcək: "Qondarma "Dağlıq Qarabağ respublikası"nın qondarma parlamentinin Şuşa şəhərinə köçürülməsi və parlament üçün binanın inşa edilməsi də, - bu bina indi məhv ediləcək, yaxud söküləcək, - təxribat xarakterli addım idi. Yəni, bütün bu addımlar göstərirdi ki, Ermənistan bizi təxribata çəkir, bizdən sərt reaksiya gözləyir və ondan sonra günahı bizim üstümüzə yıxıb, yenə də məsələni daha 30 il uzatmaq istəyir. Biz təxribata uymadıq".

"Biz özümüzü təmkinli apardıq, beynəlxalq hüququn bütün norma və prinsiplərinə uyğun şəkildə apardıq və belə olan halda Ermənistan keçən ilin yayında bizə qarşı hərbi təxribat törətdi. Ermənistan-Azərbaycan dövlət sərhədində bizim mövqelərimiz atəş altına düşdü. Ermənistan hərbi birləşmələri bizim sərhədimizi keçməyə cəhd göstərdi, bir neçə hərbçimiz həlak oldu. Biz onlara layiqli cavab verdik və onları geri oturtduq",-deyən Prezident İlham Əliyev onu da bildirib ki, biz Ermənistan-Azərbaycan dövlət sərhədini keçmədik: "Bir neçə gün davam edən hərbi toqquşma dayandı. Çünki bizim Ermənistan ərazisində müharibə aparmaq niyyətimiz yox idi".

### "İstəsəydik rahatlıqla Ermənistan ərazisinə daxil ola bilərdik"

"Halbuki istəsəydik rahatlıqla Ermənistan ərazisinə daxil ola bilərdik",-deyən dövlət başçısı bildirib ki, ondan bir ay keçəndən sonra - avqust ayında yeni bir təxribat törədildi və Azərbaycana diversiya qrupu göndərildi: "Diversiya qrupunun rəhbəri saxlanıldı və ifadə verdi ki, o, terror aktları keçirmək üçün Azərbaycana göndərilmişdir və bu, növbəti təxribat idi. Nəhayət sentyabrın sonlarında bizim hərbi mövqelərimiz və yaşayış məntəqələrimiz artilleriya atəşinə məruz qalmışdır və bunun nəticəsində bir neçə hərbçi və bir neçə mülki şəxs həlak olmuşdur. Biz təbii olaraq buna adekvat cavab verərək, əks-hücum əməliyyatı keçirib düşmənin layiqincə cəzalandırdıq və 44 gün davam edən II Qarabağ müharibəsi Azərbaycanın tam qələbəsi ilə nəticələndi. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, müharibə dövründə 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi. Bizim tarixi şəhərimiz Şuşa noyabrın 8-də işğalçılardan azad edildi və Ermənistan məcbur olub kapitulyasiya aktına imza atdı".

### "Dağlıq Qarabağ adında hazırda hər hansı bir ərazi vahidi yoxdur"

"Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri Bəyanat imzalayıblar. Bu Bəyanat əsasında bizim digər rayonlarımız artıq siyasi yollarla Azərbaycana qaytarıldı" deyən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onu da bildirib ki, beləliklə, məsələ hərbi-siyasi yollarla həll olundu: "Artıq tam əminliklə demək olar ki, Dağlıq Qarabağ məsələsi, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmışdır. Dağlıq Qarabağ adında hazırda hər hansı bir ərazi vahidi yoxdur. Azərbaycan bu məsələni həll edib, tarixi Zəfər əldə edib və dağıdılmış ərazilərdə bərpa işləri başlayıb".

"Türkiyənin dəstəyi bizə əks-hücum əməliyyatını uğurla keçirmək imkanı verdi"

Prezidenti İlham Əliyev çıxışı zamanı Azərbaycanın müharibənin ilk günündən qardaş Türkiyədən böyük dəstək aldığını diqqətə çatdırıb: "Mənim əziz qardaşım, Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan sentyabrın 27-də müharibə başlanan gün açıq şəkildə Azərbaycana dəstək ifadə etdi. Bu siyasi və mənəvi dəstəyin çox böyük əhəmiyyəti var idi. Əziz qardaşım bildirmişdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Əlbəttə ki, bu, çox ciddi mesaj idi, ciddi siqnal idi. Bu, bizə imkan verdi ki, əks-hücum əməliyyatını uğurla keçirək, imkan verdi ki, hər hansı bir kənar qüvvə məsələyə müdaxilə etməsin. Mən həmişə demişdim ki, əgər xarici müdaxilə olmasa, Azərbaycan Dağlıq Qarabağ məsələsini qısa müddət ərzində həll edə bilər və belə də oldu".

### "Biz öz tarixi missiyamızı icra etdik, erməni faşizmini məhv etdik"

Azərbaycan Prezidenti erməni vəhşilikləri ilə də bağlı geniş məlumat verərək bildirib ki, biz öz tarixi missiyamızı icra etdik, erməni faşizmini məhv etdik: "Ermənilər bütün şəhərlərimizi, bütün tarixi abidələrimizi məhv ediblər, qəbiristanlıqları şumlayıblar, qəbirləri dağıdıblar, 60-dan çox məscidi dağıdıblar və yarımçıq sökülmüş məscidlərdə inək, donuz saxlayıblar. Bu, bütün müsəlman aləminə qarşı təhqirdir, cinayətdir və bütün dünya artıq bunu görür və görməlidir. Biz öz tarixi missiyamızı icra etdik, erməni faşizmini məhv etdik".

### "Ermənistan bu günə qədər bizə mina xəritələrini vermir"

Prezident İlham Əliyev onu da qeyd edib ki, Ermənistan bu günə qədər bizə mina xəritələrini vermir. Bu, növbəti hərbi cinayətdir. Ona görə minalardan təmizləmə işi daha çox vaxt aparacaq. Bu işlər başa çatmadan, əlbəttə ki, biz köçkün, qaçqın soydaşlarımızı o torpaqlara qaytara bilmərik: "Müharibə başa çatdı, münaqişə tarixdə qaldı. Yeni imkanlar yarandı. Onların arasında hesab edirəm ki, ən vacibi nəqliyyat imkanlarıdır. Bu gün biz artıq Zəngəzur dəhlizi üzərində çox fəal çalışırıq",-deyən dövlət başçısı Zəngəzur dəhlizinin əhəmiyyətindən danışaraq deyib: "Naxçıvanda keçirilmiş Zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq, görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq, o cümlədən Ermənistan üçün. Ermənistanın hazırda onun müttəfiqi olan Rusiya ilə dəmir yolu əlaqəsi yoxdur. Bu dəmir yolu əlaqəsi Azərbaycan ərazisindən yarana bilər. Ermənistanın onun qonşusu olan İranla dəmir yolu əlaqəsi yoxdur. Naxçıvan vasitəsilə bu dəmir yolu təmin edilə bilər". Prezident qeyd edib ki, Azərbaycan Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birləşir, Orta Asiya Avropa ilə birləşir: "Yəni, yeni nəqliyyat dəhlizi yaranmaqdadır. Artıq Azərbaycan bu işlərə start vermişdir. Əminəm ki, tərəfdaş ölkələr də bu imkanlardan istifadə edəcəklər".

**RƏFİQƏ KAMALQIZI**

# Prezident İlham Əliyevin Türk Şurasının Zirvə görüşündəki çıxışı Türkiyə mediasında geniş işıqlandırılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının martın 31-də keçirilmiş videokonfrans formatında qeyri-formal Zirvə görüşündəki çıxışı Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.**


SABAH ≡ SON DAKİKA GÜNDEM EKONOMİ YAŞAM SAĞLIK

■ **HASSASIYETLE** üzerinde durduğum aziz kardeşim Sayın İlham Aliyev nezdinde tüm Azerbaycanlı kardeşlerimi, Dağlık Karabağ'daki zaferleri için bir kez daha yine şahsım, milletim adına tebrik ediyorum. 44 gün süren destansı mücadele sonrasında 30 yıllık işgal son bulmuş, Dağlık Karabağ anavatanla tekrar kucaklaşmıştır. Dağlık Karabağ'da 67 camiden 63'ü yıkıldı, kiliseler tarumar edildi. Azerbaycanlıların uğradığı Hocalı Katliamı'nda katledilen on binlerce kişiyi rahmetle anıyorum. Karabağ'daki Türk yapılarının korunması ve ihyası için tüm imkanlarımızla Azerbaycan'ın yanında olmaya devam etmemiz önem taşımaktadır. Aynı şekilde bu adımı atarken Azerbaycan'ın bu bölgeyi ayağa kaldırmak suretiyle bütün muhacir kardeşlerimizin yeniden topraklarına dönmesini çok çok önemsiyorum. Temennimiz odur ki en kısa zamanda Ramazan Bayramı'ndan sonra, Şuşa'yı ziyaret etmek suretiyle kardeşimizle birlikte Şuşa'da inşallah yeni bir bayram yaşayalım.

AZƏRTAC xəbər verir ki, Anadolu agentliyi, "Haber Global" telekanalı, "Milliyyət", "Sabah" və digər nüfuzlu KİV-lər həm Zirvə görüşü, həm də Prezident İlham Əliyevin tədbirdəki çıxışına geniş yer ayırıblar.

Türk Şurasının perspektivli beynəlxalq təşkilata çevrildiyini diqqətə çatdıran KİV-lər Prezident İlham Əliyevin Zirvə görüşündəki çıxışının ayrı-ayrı hissələrini manşet material kimi təqdim ediblər. Türkiyə mediası, həmçinin tanınmış analitiklərin və publisistlərin mövzu ilə bağlı şərhlərini türkdilli ictimaiyyətə təqdim edib. Vurğulanıb ki, Azərbaycanın ötən il apardığı 44 günlük Vətən savaşı ilə regionda yeni münasibətlər mənzərəsi yaranıb.


≡ HABER|GLOBAL

SON DAKİKA GÜNDEM EKONOMİ DÜNYA SPOR MAGAZİN YAŞAM

Azerbaycan Cumhurbaşkanı Aliyev, Türk Konseyi Zirvesi'nde konuştu: Zengezur Türk dünyasının birleştirici rolü olacak

Haberler | Dünya

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, Zengezur'dan geçecek ulaşım, iletişim ve altyapı projelerinin tüm Türk dünyasını birleştireceğini, Ermenistan dahil diğer ülkeler için ek fırsatlar yaratacağını söyledi. Aliyev konuşmasında "Zengezur Türk dünyasının birleştiricisi rolünü oynayacak" dedi.

Google News | Abone Ol  Facebook  Twitter  WhatsApp

Diqqətə çatdırılıb ki, tədbirdə çıxışı zamanı mövcud vəziyyəti dəyərləndirən Prezident İlham Əliyev deyib: "Yeni imkanlar yarandı. Onların arasında hesab edirəm ki, ən vacib imkan nəqliyyat imkanlarıdır. Bu gün biz artıq Zəngəzur dəhlizi üzərində çox fəal çalışırıq. Naxçıvanda keçirilmiş Zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq, o cümlədən Ermənistan üçün. Ermənistanın hazırda onun müttəfiqi olan Rusiya ilə dəmir yolu əlaqəsi yoxdur.


EURO 9,75 DOLAR 8,26 BIST 100 1.391,73 ALTIN 1.709,65

AA 100 yıl  TÜRKİYE KORONAVİRÜS DÜNYA EKONOMİ SPOR ANALİZ İNFOGRAFİK VİDEO FOTOĞRAF

DÜNYA, AZERBAYCAN CEPHE HATTI

Azerbaycan Cumhurbaşkanı Aliyev: Zengezur Türk dünyasının birleştiricisi rolünü oynayacak

Aliyev, "Bir zamanlar Zengezur'un Azerbaycan'dan koparılarak Ermenistan'la birleştirilmesi Türk dünyasını coğrafi olarak parçalamıştı. Azerbaycan toprağı olan Zengezur şimdi Türk dünyasının birleştiricisi rolünü oynayacak." dedi.

Ruslan Rehimov | 31.03.2021

Koronavirüs

Brezilya Devlet Başkanı Bolsonaro: Bu sorunu evde kalarak çözemeyiz


Milliyet » Son Dakika Gündem Ekonomi Dünya Yazarlar UzmanPara Skorer Pembenar Cadde

Haberler > Dünya Haberleri > Aliyev'den Cumhurbaşkanı Erdoğan'a t...

Aliyev'den Cumhurbaşkanı Erdoğan'a teşekkür: Herhangi bir dış gücün bize müdahale etmesini önledi

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, Zengezur'dan geçecek ulaşım, iletişim ve altyapı projelerinin tüm Türk dünyasını birleştireceğini, Ermenistan dahil diğer ülkeler için ek fırsatlar yaratacağını söyledi.

31.03.2021 - 18:31 | Son Güncellenme: 31.03.2021 - 18:44| AA

telemach
Više za manje. Uzmi TOP!

Aliyev'den Cumhurbaşkanı Erdoğan'a teşekkür: Herhangi bir dış gücün biz...

Bu dəmir yolu əlaqəsi Azərbaycan ərazisindən yarana bilər. Ermənistanın onun qonşusu olan İranla dəmir yolu əlaqəsi yoxdur. Naxçıvan vasitəsilə bu dəmir yolu təmin edilə bilər. Azərbaycan Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birləşir, Orta Asiya Avropa ilə birləşir. Yəni, yeni nəqliyyat dəhlizi yaranmaqdadır. Artıq Azərbaycan bu işlərə start vermişdir. Əminəm ki, tərəfdaş ölkələr də bu imkanlardan istifadə edəcəklər".


FP  SIGN IN  SUBSCRIBE

REPORT: The U.S. Army Goes to School on Nagorno-Karabakh Conflict

REPORT

The U.S. Army Goes to School on Nagorno-Karabakh Conflict

Off-the-shelf air power changes the battlefield of the future.

BY JACK DETSCH | MARCH 30, 2021, 2:05 PM

Drone Detect and Avoid System
Iris Automation

latest

How I Got Caught Up in the Great Vaccine Race
MARCH 30, 2021, 6:07 PM

An Arab Kingmaker in Israeli Politics?
MARCH 30, 2021, 5:02 PM

Virginia Homeowners Are Getting Paid To Install USA...
Powerhome Solar | Sponsored

## Azərbaycanın Qarabağda apardığı müharibənin taktikası ABŞ-da öyrənilir

**Amerikada çıxan "Foreign Policy" jurnalında dərc olunan məqalədə Qarabağ müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin hərbi əməliyyatlar aparılması təcrübəsinin amerikalı hərbçilər tərəfindən öyrənilməsi barədə söhbət açılır.**

AZƏRTAC xəbər verir ki, amerikalı jurnalist Cek Doytç məqaləsində ötən payız Azərbaycanın müharibənin gedişində Türkiyə istehsalı olan pilotsuz uçuş aparatlarından və zərbə pilotsuz uçuş aparatlarından istifadə edərək, Dağlıq Qarabağda hava məkanına nəzarəti tamamilə öz üzərinə götürməsindən yazır. Məhz o vaxt ABŞ Silahlı Qüvvələrinin strateqlərinə aydın oldu ki, müasir dövrdə düşmənin canlı qüvvəsini tapmaq və məhv etmək əvvəlkinə nisbətən daha asan və ucuz başa gəlir.

ABŞ ordusunda asimmetrik müharibə qrupunun sabiq rəhbəri polkovnik Skott Şou deyib: "Pilotsuz hava sistemləri tərəfindən tankların, artilleriya mövqelərinin və qoşunların necə məhv edilməsini videokadrlarda izləmək olar". Onun sözlərinə görə, ötən payız Azərbaycan erməni silahlı qüvvələrini darmadağın etdikdən sonra aydın oldu ki, Amerika silahlı qüvvələri daha öz rəqibləri üzərində havada şəksiz üstünlüyə malik ola bilməyəcəklər və hətta nisbətən yoxsul ölkələr özlərini etibarlı hərbi hava qüvvələri ilə təmin edə bilərlər.

Müəllif yazır ki, Azərbaycan altı həftəlik münaqişə zamanı erməni qoşunlarının zirehli tank qüvvələrini, həmçinin logistika və təchizat xəttini məhv etməkdən ötrü Türkiyə istehsalı olan "Bayraktar TB2" pilotsuz uçuş aparatlarından və əksəriyyəti İsraildə istehsal olunmuş zərbə pilotsuz uçuş aparatlarından istifadə etdi. Erməni silahlı qüvvələrinin silah-sursatla yüklənmiş maşın karvanları cəbhə xəttinə çatmağa belə macal tapmırdı.

Məqalədə deyilir ki, münaqişənin son günlərində Azərbaycan Prezidenti İlham Əliyev erməni qüvvələrinə məxsus məhv edilən və ələ keçirilən texnikanın, o cümlədən təxminən 250 tank, 50 ədəd piyadaların döyüş maşını və 4 ədəd S-300 raketəleyhinə müdafiə sistemi, həmçinin 198 yük maşını və 17 özüyeriyən artilleriya qurğusunun siyahısını elan edib. Oktyabrın ortalarında Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycan hərbçiləri Türkiyə istehsalı olan pilotsuz uçuş aparatlarının köməyi ilə 1 milyard dollardan artıq dəyərə malik erməni təchizatının məhv ediblər.

Məqalədə bildirilir ki, amerikalı hərbçilər Azərbaycanın təqdim etdiyi, müharibə aparılmasının uğurlu strategiyasını və müasir taktikasını nümayiş etdirən videomaterialları diqqətlə öyrənirlər.

## Erməni "İsgəndərlərinin" lokasiyası ifşa edildi: **koordinatlar bəllidir!**

Ermənistanda yerləşdirilmiş "İsgəndər" ballistik raketlərinin yerləşdikləri məkan (lar) məlum olub. SİA xəbər verir ki, bununla bağlı azərbaycanlıların KarabakhBulletin teleqram kanalı yazır ki, Ermənistan "İsgəndərləri" harada gizlətsə belə onların tapılması elə də çətinlik yaratmır. Kanal qeyd edir ki, əgər onlar əllərində olan texnologiyalarla raketlərin yerini müəyyən edə biliblərsə, mütəxəssislər 100% tapa bilərlər. "Ermənistan tərəfindən istənilən aqressiya olarsa, perventiv zərbələr məhz "İsgəndərlərin", eləcə də aviasiyaların bazalarına endirilə bilər. Lokasiya da əlçatandır", deyə adıçəkilən teleqram kanalı yazıb.




*Rövşən RƏSULOV*

# Ermənistanla sərhəddə DSX-nin yeni hərbi hissəsi fəaliyyətə başlayıb

**Aprel ayının 1-də Qubadlı rayonu ərazisində Ermənistanla dövlət sərhədində yeni hərbi hissə xidməti-döyüş fəaliyyətinə başlayıb. Dövlət Sərhəd Xidmətindən (DSX) SİA-ya verilən məlumata görə, bununla əlaqədar təşkil olunmuş mərasimdə DSX rəisinin birinci müavini general-leytenant Rəşad Sadiqov çıxış edərək DSX-nin rəisi general-polkovnik Elçin Quliyevin təbrikini şəxsi heyətə çatdırmışdır.**

Çıxışda Vətən Müharibəsində düşmən üzərində tarixi qələbənin əldə olunmasında Azərbaycan sərhədçilərinin şərəflə iştirak etmələri və qarşıya qoyulmuş döyüş tapşırıqlarını ən yüksək səviyyədə yerinə yetirmələri, dövlət sərhədlərimizin işğaldan azad olunmasından sonra qısa müddət ərzində bu ərazilərdə sərhəd mühafizə bölmələrinin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkilinin böyük əhəmiyyət kəsb etməsi qeyd olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin dövlət sərhədlərimizin mühafizəsinə göstərdiyi yüksək etimadı doğrultmaq üçün səy və bacarıqlarını əsirgəməyən Azərbaycan sərhədçilərinin düşmən tapdağından azad olunmuş müqəddəs sərhədlərimizin toxunulmazlığının təmin edilməsi vəzifəsinin öhdəsindən də layiqincə gələcəklərinə əminlik ifadə olunmuşdur.












Yeni hərbi hissə kompleksinin açılışını bildirən rəmzi lent kəsildikdən sonra tədbir iştirakçıları hərbi hissənin şəxsi heyətinin xidməti-döyüş fəaliyyətinin təşkili üçün yaradılmış şəraitlə tanış olmuş, o cümlədən xidməti otaqlara, kazarma və yeməkxanaya, hamam-camaşırxana kompleksinə, anbar, silah və texniki vasitələrə, avtomobil texnikasına baxış keçirmişlər. Kompleks daimi işıq və istilik sistemi, zəruri avadanlıqlar, mebel və məişət əşyaları ilə təmin edilmişdir. Tədbirin sonunda xidməti fəaliyyətində yüksək nəticələr göstərmiş hərbi qulluqçular təltif olunmuşlar.

# Ermənistan minalanmış ərazilərin xəritələrini Azərbaycana niyə təhvil verməlidir?

**“Karabakhspace.eu” saytında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində baş məsləhətçisi Vasif Hüseynovun “Ermənistan minalanmış ərazilərin xəritələrini Azərbaycana niyə təhvil verməlidir” sərlövhəli məqaləsi dərc olunub.**

AZƏRTAC xəbər verir ki, müəllif məqaləsində ötən ilin payızında baş verən 44 günlük müharibədən sonra ərazilərin minalardan və partlamamış digər sursatlardan təmizlənməsinin ən vacib məsələlərdən biri olaraq qaldığını vurğulayıb. Bildirib ki, Qarabağ müharibəsinin başlanmasından artıq 6 ay keçib. Bu müharibə Ermənistan ilə Azərbaycan arasında Qarabağ uğrunda 30 ildir davam edən münaqişəyə son qoydu. Nəticədə döyüş meydanında Ermənistan üzərində Qələbə qazanan Azərbaycan Birinci Qarabağ müharibəsi zamanı itirdiyi torpaqlarını işğaldan azad etdi.

Vurğulanıb ki, işğalın başa çatması bu ölkələr arasında barışıq və sülh əldə etmək üçün xüsusi əhəmiyyət malikdir. Bir çox regional və beynəlxalq aktorlar yaranmış yeni vəziyyəti bölgədə uzunmüddətli sülh və əlverişli əməkdaşlığa şəraitə yol açacaq amil kimi qarşılayıb. Lakin bu istiqamətdə bəzi çağırışlar da var və bu çağırışların həlli hər iki ölkə üçün əhəmiyyətlidir. Qeyd olunub ki, Ermənistan və Azərbaycan hökumətlərinin regional nəqliyyat və infrastruktur layihələrində əməkdaşlığın əlverişli olmasını qəbul etməsi bu iki ölkə arasındakı əlaqələrdə yeni səhifə açmaq üçün yaxşı baza rolunu oynaya bilər.

Bildirilir ki, ilk növbədə, Ermənistanın işğal olunmuş ərazilərin minalarının xəritələrini Azərbaycana qaytarması sülh prosesinə güclü təkan verə və qarşılıqlı kompromisi təşviq edə bilər. Minalanmış ərazilərin xəritələrinin verilməməsi təkcə tərəflər arasındakı gərginliyin hələ də davam etməsinə xidmət etmir, eyni zamanda, beynəlxalq humanitar hüquqa da ziddir.


KarabakhSpace.eu
KARABAKHSPACE.EU IS FUNDED BY THE EUROPEAN UNION
HOME NEWS VOICES ABOUT US ARCHIVE COMMONSPACE.EU
OPINION DEMINING
Opinion: Why should Armenia hand over mine maps to Azerbaijan?
31-MAR-2021 VASIF HUSEYNOV
Since the end of the 44-day war last autumn, the clearance of landmines and other unexploded remnants of war has emerged as one of the most pressing issues. Dr Vasif Huseynov makes the case for why Armenia should hand over maps of mined territories now under Azerbaijani control in this op-ed for *KarabakhSpace.eu.*
Six months have passed since the first fire of the Second Karabakh War that started in the early morning of September 27, 2020. The war ended the three-decade old

Rəsmi məlumatlara görə, işğaldan azad edilmiş ərazilərdə indiyədək 20-yə yaxın mülki azərbaycanlı mina partlaması nəticəsində həyatını itirib, 70-dən çox insan isə yaralanıb.

Mina qurbanlarının sayının getdikcə artmasına baxmayaraq, Ermənistanın beynəlxalq hüquqa məhəl qoymaması və bu həssas məsələdə Azərbaycanla əməkdaşlıqdan yayınması regionda vəziyyəti daha da gərginləşdirir, iki ölkə arasında yarana biləcək əməkdaşlıq mühitinin yaranmasına da mane olur.

Müəllif qeyd edir ki, Ermənistan minalanmış ərazilərin dəqiq xəritəsini verməkdən boyun qaçırır. Buna görə də Ermənistanın bu məsuliyyətsiz hərəkətləri ciddi şəkildə qınanmalıdır. Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevin bu məsələ ilə bağlı “Twitter” hesabında etdiyi paylaşıma istinadla müəllif vurğulayır ki, Qarabağın azad edilmiş əraziləri dünyada ən çox minalanmış ərazilər arasındadır və bu, Ermənistanın Azərbaycana qarşı “mina terroru”dur.

Həmçinin bildirilib ki, minaların təmizlənməsi mürəkkəb prosesdir və bu, uzun vaxt tələb edə bilər. Bölgənin dağlıq relyefə malik olması isə prosesi daha da çətinləşdirir. Azərbaycanın aldığı beynəlxalq dəstək prosesi sürətləndirməyə kömək edir, lakin problemi lazımi müddətdə həll etmir.

Buna görə də minalanmış ərazilərin xəritələrini təhvil vermək, regional vəziyyəti daha da gərginləşdirməyi dayandırmaq, azərbaycanlılar və ermənilər arasında düşmənçilik səhifəsini çevirmək üçün misli görünməmiş tarixi şans əldə etmək Ermənistan hakimiyyəti üçün son dərəcə vacibdir. Ermənistanın Qarabağ bölgəsinin minalardan təmizlənməsi məsələsində əməkdaşlıq etməkdən başqa alternativi yoxdur. Çünki hər bir mülki şəxsin ölümü sülh təşəbbüslərinə zərbə vurur və əgər Ermənistan Azərbaycanla münasibətlərə önəm verirsə, buna diqqət yetirməlidir.



## Bayraktar: “Qarabağ məsələsi içimizdə yara idi”

**Pilotsuz uçuş aparatların tanınmış mütəxəssisi, əfsanəvi “Bayraktar” hərbi dronlarının yaradıcısı Selçuk Bayraktar Bakıdadır. SIA xəbər verir ki, o, Azərbaycan Televiziyasına eksklüziv müsahibə verib.**

“Gənclik illərimizdə Qarabağ məsələsi içimizdə yara idi. Bu yara 30 il idi qanayırdı. Mühəndis olaraq bu zəfərə bir qatqımızın olması həyatımız boyu əldə edə biləcəyimiz ən böyük şərəfdir”, - deyən Bayraktar ölkəmizdə nəzərdə tutulan layihələrdən danışıb. O, Bakıda dünyanın ən böyük hava Texnologiya festivalı - “Teknofest”in təşkil olunacağını qeyd edib.

# "Şimal-Cənub" və Zəngəzur dəhlizi: Ermənistan ya məhvini, ya da inkişafını seçməlidir



Son zamanlar Ermənistanın hakimiyyət dairələri tərəfindən regional nəqliyyat kommunikasiyalarının açılmasının vacibliyi ətrafında mütəmadi fikirlər səsləndirilir. Belə görünməyə başlayıb ki, İrəvanda "Şimal-Cənub" dəmir yolu beynəlxalq dəhlizinin açılmasında maraqlı görünən ölkə rəhbərliyi Azərbaycanla münasibətlərin normallaşmasını istəyirlər. Əks halda, Ermənistanın başqa çıxış yolu qalmayıb və xilas yolu da, məhz bu dəhlizdən keçir. Məsələn, baş nazir Nikol Paşinyan bu yaxınlarda keçirdiyi təhlükəsizlik şurasının iclasında müvafiq addımların atılmasının qaçınılmaz olduğunu bildirib. Mövcud mövzu Paşinyanın regionlara səfəri zamanında da müzakirə edilib. O da maraqlıdır ki, Hindistan və İran arasında "Şimal-Cənub" marşrutunun açılması, kommunikasiyaların qısa zamanda işlək vəziyyətə gətirilməsi ətrafında danışıqlar aparılıb. Lakin Ermənistanın sözügedən layihədə iştirak etməsinin, eləcə də üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək məcburiyyətində qalmasının daha bir səbəbi də var. Belə ki, Bakının sözügedən marşrutda alternativ yolunun olması və yolun Astaradan keçmək mümkünlüyü də İrəvanın Zəngəzur dəhlizinin açılması prosesində marağını daha da artırmaqdadır.

### Nikol Paşinyan nəyə görə qonşularla münasibətlərin normallaşdırılması vacibliyindən danışıb?

Nəticədə uzun illər iqtisadiyat və nəqliyyat-logistik dalanında ilişib-qalan Ermənistan yavaş-yavaş olsa da, konstruktiv məcraya doğru addımlamağa başladığını gizlətmir. Əbəs deyil ki, Nikol Paşinyan təhlükəsizlik şurasının iclasında məsləhət görüb ki, uzunmüddətli blokada ölkəni regiondakı layihələrdən kənarda qoyub və buna görə də postmüharibə dövründə qonşularla münasibətləri normallaşdırmaq vacibdir.

İclasdan iki gün əvvəl - Armavir vilayətindəki seçiciləri ilə görüşündə Paşinyan öz mövqeyini daha dəqiq formada bəyan edib. "Bizim İran və Rusiya istiqamətindəki dəmir yollarımız Azərbaycanın ərazisindən keçir. Mümkün ola bilməz ki, biz onların ərazisindən keçək, onlar isə bizim ərazimizdən keçməsinlər. Biz regiona olan baxışlarımızı dəyişməliyik, bizim nəzər nöqtəmiz nəqliyyat kommunikasiyalarının birgə istifadəsinin vacibliyi ilə bağlı qərarın qəbul edilməsinə yönəlməlidir", deyə Ermənistanın baş naziri seçiciləri ilə görüşündə bildirib.

Bənzər fikirlərlə Ermənistanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryan da çıxış edib. O, Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılması ilə bağlı verilən sualı belə cavablandırıb: "Ümumilikdə, deblokada (blokadadan çıxış- R.R.) yalnız Azərbaycanla olmalı deyil, daha geniş regional yanaşmaya sahib olmaq lazımdır və biz hesab edirik ki, hazırkı məqamda bu imkanlar var". İrəvan siyasətçilərinin ayılması bu ölkənin konstruktiv mövqeyə keçid almasını Azərbaycanın, Rusiyanın və Ermənistanın baş nazirlərinin müavinləri səviyyəsindəki üçtərəfli fəaliyyətində də göstərir. Belə ki, işçi qrupun son iclaslarında nəqliyyat kommunikasiyalarının deblokadası məsələsi aktiv şəkildə müzakirə edilib.

### Ermənistan hökumətində və işgüzar dairələrdə yaxşı anlayırlar ki, ölkənin 30 illik təcriddən çıxmasının yeganə yolu məhz konstruktivlikdən keçir

Söz yox ki, Ermənistanın Azərbaycan və İran arasında açılacaq dəmir yolu xətləri prosesinə inteqrasiyası rəsmi İrəvanın bundan sonrakı rasional siyasətinin necə inkişaf etməsindən asılı olacaq. Baxmayaraq ki, Ermənistanın müxalifət gücləri hələ də nəqliyyat kommunikasiyalarının açılmasına, Bakı və Ankara ilə əməkdaşlığına qarşı fikirlər səsləndirirlər, ölkə hökumətində və işgüzar dairələrdə yaxşı anlayırlar ki, ölkənin 30 illik təcriddən çıxmasının yeganə yolu məhz konstruktivlikdən keçir. İrəvanda həm də onu yaxşı dərk edirlər ki, keçmişdə qaranlıq ümidlərə söykənən Ermənistan-İran birbaşa dəmir yolu xətti bu gün faktiki olaraq sıfıra bərabərdir. Çünki heç bir investor iki-üç milyard ABŞ dollarını çətin dağ landşaftındakı dəmir yolunun layihəsinə xərcləməyə razı olmaz. Üstəlik, Ermənistanın geosiyasi və iqtisadi dalanda olmasını da nəzərə alan sərmayəçilər ümumiyyətlə, bu layihədən kənar qalmağı üstün tutublar.

### Suet kanalındakı qəza dünya iş adamlarının diqqətini "Şimal-Cənub" dəhlizinə tərəf çevirib

Yeri gəlmişkən, bu yaxınlarda dünya iqtisadiyyatına külli ziyan vuran Suet kanalındakı qəzadan sonra Hind-Çin və Cənubi Asiya ilə Avropa regionlarının nəqliyyat əlaqələri istiqamətində fəaliyyət göstərən iş adamları Hindistan-İran-Azərbaycan-Rusiya ticarət marşrutuna böyük maraq göstərməyə başlayıblar. Bundan əlavə, yüklərin "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi ilə daşınması Hindistanla Avropa arasındakı yol müddətini 40-20 günə qədər qısaldır, həmçinin nəqliyyat xərclərini də 30%-ə qədər azaldır. Eyni zamanda, Mimbaydan Moskvaya qədərki nəqliyyat xərclər azalacaq və standart 40 futluq konteynerlərinin daşınmasının qiyməti endiriləcək, təqribən 3 min dollardan aşağı olmaqla. Gözlənilir ki, mövcud marşruta çıxışla Azərbaycan ərazisindən keçən yük dövriyyəsini 6 milyon tona qədər, gələcəkdə isə iki dəfə artıq şəkildə artırmaq mümkündür.

"Şimal-Cənub" layihəsinin irəlilləməsi İranla Azərbaycan arasında imzalanmış və birgə dəmir yolu layihələrinin, eləcə də magistral avtomobil yollarının birləşdirilməsinin reallaşmasına hesablanan razılaşmaya da impuls verir. "Şimal-Cənub" dəhlizi layihəsi çərçivəsində bir neçə planlar realizə olunmağa başlayıb: İran Astarasında dəmir yolu terminalının inşası, Rəşt-Astara dəmir yolunun qoyulması və transsərhəd çayı üzərində beş körpünün tikintisi. Gündəmdə Araz çayı üzərindən avtomobil körpüsünün tikintii və Ərdəbil dəmir yolunun Azərbaycanın dəmir yolları ilə birləşdirilməsi məqsədi də dayanıb. Ümumilikdə, "Azərbaycan dəmir yolları" QSC-i Azərbaycan-İran sərhədi yaxınlığında, İranın ərazisində yük terminalının tikintisini davam etdirir. Yaxın vaxtlarda isə regionda nəhəngliyi ilə seçilən və il ərzində 1 milyon ton buraxılışı ilə Astara Grain Terminal taxıl terminalı istifadəyə veriləcək. Son məlumatlara görə, podratçı "Parhoon Tarh" Astara taxıl terminalında tikinti-montaj işlərinin 96 faizini həyata keçirib.

### Yeni İrəvanın siyasi çevrələrində irəli sürüləcək istənilən iddialara qarşı Bakının hər zaman alternativ variantları olub

Bu layihələrin vacibliyi daha bir faktora toxunur - İran tərəfinin Rəşt-Astara dəmir yolunun 211 kilometrlik hissəsinin tamamlanması və Azərbaycan Astarasında relslərin birləşdirilməsi ilə bağlı uzanan işlərin sürətləndirilməsi - Fars Körfəzindən Helsinkiyə qədər. Ən əsası isə, bu marşrut ümumiyyətlə Ermənistanla əlaqəli deyil. Yəni İrəvanın siyasi çevrələrində irəli sürüləcək istənilən iddialara qarşı Bakının hər zaman alternativ variantları olub. Daha dəqiq desək, Azərbaycan Hindistan, İran və Rusiya arasındakı dəmir yolu yükdaşımalarında açar rolunu müstəqil qaydada oynaya bilər.

İrəvan isə "Şimal-Cənub" dəhlizinə qoşulması üçün kifayət qədər konstruktiv davranmalı və eksklav Naxçıvan Muxtar Respublikasının Azərbaycanın digər əraziləri ilə birləşdirən Zəngəzur dəhlizinin açılmasında necə deyərlər, nala-mıxa döyəcləməməlidir. Bu məsələnin uzadılması və Azərbaycanın ehtiyat - Astara marşrutunu seçməsi məsələsi də Ermənistanın marağında deyil. Cənubi Qafqazda müharibəsonrası yeni reallıqlar bütün ölkələrə nəqliyyat əməkdaşlığı şansını verir və Bakı bu məsələdə ilk addımını atıb - Horadiz-Zəngilan-Ağbənd-Ermənistan sərhədi dəmir yolunun inşasına başlaması ilə.

*Rövşən RƏSULOV*

# "Türk dövlətlərinin birlikdə olması güclü olmağımızın ən etibarlı zəmanətidir"



"17 illik Prezidentlik fəaliyyəti ərzində ölkə başçımız cənab İlham Əliyev çıxış etdiyi bütün beynəlxalq kürsülərdən Azərbaycanın milli maraqlarını prinsipiallıqla ifadə və müdafiə edib. Ölkə başçımız 31 mart 2021-ci il tarixində çıxış etdiyi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında qeyri-formal Zirvə görüşündə də bu ənənəsinə sadiq qaldı. Belə ki, toplantıdakı çıxışını əsasən Qarabağ mövzusuna həsr edən cənab Prezidentin də qeyd etdiyi kimi Ermənistan illər ərzində xarici dəstəklərinə arxalanaraq Azərbaycana qarşı sistemli, ardıcıl olaraq təxribatlar törətmiş, Paşinyan Şuşada andiçmə keçirərək, Cıdır düzündə yallı gedərək, "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı verərək və 2020-ci ilin yayında Ermənistanın müdafiə naziri yeni əraziləri işğal etmək anonsları verərək xalqımızın heysiyyatı ilə oynamışlar. 2020-ci ilin 44 günlük müharibəsi məhz bu ardıcıl təxribatlara cavab olaraq baş verdi və xarici dairələrin dəstəyinə, Minsk qrupunun fəaliyyətinin "sıfır effektivliyi"nə baxmayaraq Azərbaycan illərlə kağız üzərində qalan BMT qətnamələrini özü təkbaşına icra etdi. İstər Vətən müharibəsinə qədər olan zaman kəsiyində, istərsə müharibə zamanı Türkiyənin Azərbaycana qarşı siyasi və mənəvi dəstəyi olduqca böyük əhəmiyyət kəsb etmişdir. Müharibənin gedişində hər gün, hər an Türkiyənin Prezidenti sayın Rəcəb Tayyip Ərdoğan, eləcə də Türkiyənin ayrı-ayrı rəsmi şəxsləri və sadə xalq qətiyyətlə və əminliklə Azərbaycanın tək olmadığını idadə edərək xalqımızın yanında olmuş, haqq işimizə dəstək vermişlər. Şuşanın azad olunması ilə əlaqədar cənab Prezident İlham Əliyevi və Azərbaycan xalqını ilk təbrik edən Prezident Rəcəb Tayyib Ərdoğan olmuşdur. Türk Şurası 2020-ci ilin sentyabrın 28-də - müharibədən bir gün sonra Azərbaycana dəstək xarakterli açıqlama vermişdir. Ondan sonra müharibə dövründə bir neçə dəfə buna oxşar açıqlamalar vermişdir. Cənab Prezident İlham Əliyev Vətən müharibəsində qardaş Türkiyənin Azərbaycana göstərdiyi güclü mənəvi və siyasi dəstəyə görə Prezident Rəcəb Tayyib Ərdoğana, Türk Şurasına bir daha xüsusi təşəkkür etdi". Bunu SİA-ya açıqlamasında politoloq Şəbnəm Həsənova deyib.

Ekspertin sözlərinə görə, ölkə başçımızın da qeyd etdiyi kimi artıq Dağlıq Qarabağ münaqişəsi öz həllini tapıb və hal-hazırda Dağlıq Qarabağ adında hər hansı bir ərazi vahidi mövcud deyil: "Azərbaycan bu məsələni həll edərək tarixi Zəfər əldə edib. Ermənistanın Qarabağda türk və müsəlman irsini məhv etməsi məsələsinə görüş zamanı xüsusi toxunan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da bildirdi ki, Qarabağ bölgəsindəki 67 məsciddən 63-ü dağıdılıb, həmçinin kilsələr də yerlə-yeksan edilib. Azərbaycan erməni faşizminin qarşısını alaraq, türk dünyası qarşısında tarixi xidmət göstərərək bu gün dağıdılmış ərazilərdə bərpa işlərinə başlayıb. Bu gün Azərbaycan cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağda dağıdılmış məscidləri, tarixi və mədəni abidələri bərpa edərkən əslində təkcə özünün deyil, bütün islam dünyasının dəyəri olan mədəni və dini irsə sahib çıxır və onu prinsipiallıqla müdafiə edir".

Politoloq qeyd edib ki, eyni zamanda, Zəngəzur dəhlizi və Naxçıvanla kommunikasiyanın açılmasının Türk dünyası üçün əhəmiyyətini vurğulayan cənab Prezident bu məsələnin vacibliyini hər zaman açıq şəkildə dilə gətirib: "Belə ki, hələ 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə və 2019-cu il oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşündə Prezident İlham Əliyev Zəngəzur bölgəsinin vaxtilə Azərbaycanın tarixi torpağı olduğunu, onu türk dünyasını parçalamaq məqsədilə Azərbaycandan qoparıb Ermənistana birləşdirildiyini bildirmişdi. Zəngəzurun qoparılması ilə türk aləminin vahid bir platformada fəaliyyətinə əngəl yaradılmışdır. Lakin bu məsələni aktual tutan cənab Prezident hər zaman bildirirdi ki, türk dünyası arasında qəbul edilmiş qərarlarla, atılmış addımlarla biz fəaliyyətimizi daha gücləndirəcəyik. Elə bu baxımdan da 2009-cu ilin oktyabrında dövlət başçılarının Azərbaycanın qədim şəhəri Naxçıvanda keçirilmiş Zirvə Görüşündə türk dövlətləri arasında əməkdaşlığın təsisatlanmış yeni formatı yaradıldı. Türk Şurasının yaradılmasına dair qərar məhz Naxçıvanda keçirilmiş Zirvə Görüşündə qəbul edilərək, türk dünyası üçün böyük rəmzi əhəmiyyətə çevrildi".

Ş.Həsənova vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi məsələsində Türkiyənin önəmli rol oynadığını Qazaxıstanın birinci Prezidenti-Elbası, Türk Şurasının fəxri sədri Nursultan Nazarbayev də çıxışında vurğuladı: "Nursultan Nazarbayev tərəfindən təklif edilən "Türk dünyasının gələcəyi - 2040" adlı sənəd olduqca mühüm əhəmiyyət kəsb edir. O baxımdan ki, bu gün türk dövlətləri müstəqil və güclüdür. Lakin müstəqil və güclü olmaqla kifayətlənməyib biz həm də birlikdə olmalıyıq, birlikdə olmağımız güclü olmağımızın ən etibarlı zəmanətidir. Bu gün türk dövlətlərinin qarşılıqlı münasibətləri ilə bağlı qəbul olunan çoxsaylı sənədlər siyasətdən iqtisadiyyata, mədəniyyətə, elm və təhsilə qədər bütün istiqamətlərdə əlaqələrimizin real əsasını təşkil edir. İndiyədək bu istiqamətdə müəyyən addımlar atılıb, amma daha qətiyyətli addımların atılmasına zərurət var. Türk birliyini mümkün və zəruri edən ilkin əsaslar tarixən mövcuddur. Eyni sivilizasiya koduna mənsub olmağımız, dil, din və mədəniyyət eyniliyimiz, türk xalqı olaraq içimizdən gələn qarşılıqlı cazibə qüvvəsi yarana və güclənə biləcək bütün növ əməkdaşlıq üçün tam real zəmin rolunda çıxış edir. Türk dövlətləri olaraq biz istənilən çağırışlara hazır olmalı, mövcud potensialı genişləndirməliyik. Bu məsələni qeyri-formal Zirvə görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev də Türk Şurasının regional əməkdaşlıq üçün səmərəli mexanizmə çevrildiyini vurğulayarkən qeyd etdi".

*Aysel Məmmədova*

## Bakını Naxçıvanla birləşdirəcək nəqliyyat dəhlizləri...

Erməni politoloq, "Orbeli" analitik mərkəzinin keçmiş əməkdaşı Andranik Ovannisyan Naxçıvanla Azərbaycanın qalan ərazilərini birləşdirəcək nəqliyyat dəhlizləri barədə məlumat verib. "İki sahil" xəbər verir ki, politoloq Ermənistanın baş naziri Nikol Paşinyanın yanvarın 11-də Rusiya prezidenti Vladimir Putin və Azərbaycan prezidenti İlham Əliyevlə görüşü zamanı bununla bağlı şifahi razılıqlar verdiyini söyləyib.

Paşinyanın Zəngəzurdan keçərək Naxçıvan və Türkiyəyə uzanan 2 nəqliyyat dəhlizinin açılmasına razılıq verdiyi bildirilir. Bunlar Bakı-Horadiz-Meğri-Naxçıvan dəmir yolu xətti və Bakı-Ağdam-Xankəndi-Laçın-Gorus-Naxçıvan avtomobil yoludur. Ermənistan ərazisindən keçəcək nəqliyyat dəhlizlərinə nəzarəti Ermənistan tərəfi deyil, Rusiya Federal Təhlükəsizlik Xidmətinin əməkdaşları həyata keçirəcək.

# Qarabağ zəfərinin başlanğıc nöqtəsi: Aprel müharibəsindən 5 il ötür

**Müzəffər Ali Baş Komandan İlham Əliyev: “Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi Azərbaycanın tərkibində həmişə olub, bu gün də onun tərkibindədir, gələcəkdə də olacaq”**

**2016-cı il aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı. Bu, aprel döyüşləri kimi qeydə alındı və dördgünlük müharibə olaraq şanlı qələbə tariximizə yazıldı.**

Aprel döyüşləri Azərbaycan Ordusunun birmənalı qələbəsi ilə nəticələndi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bir sıra mühüm və strateji əhəmiyyətli mövqelər düşməndən azad olundu. Bununla da cinayətkar erməni rəhbərlərinin keçilməz erməni səngərləri haqqında mifinin alt-üst edilməsinin ilk addımı atıldı.

Aprelin 4-ü Ermənistan ordusu itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə cəbhənin əsasən Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə yenidən hücum etdi, təmas xəttinə yaxın yaşayış məntəqələrimizi intensiv atəşə tutdu. Amma döyüşçülərimizin şücaəti qarşısında düşmən məqsədinə nail ola bilmədi. Yağı düşmənin əlavə qüvvələr göndərməklə hücumu davam etdirmək planı da baş tutmadı. Hazırlıqlı bölmələrimiz tərəfindən düşmənin strateji baxımdan əhəmiyyətli Madagiz məntəqəsindəki hərbi bazasının qərargahına və erməni könüllülərini daşıyan avtobusa zərbə endirildi. Bu əməliyyatlar zamanı Ermənistan silahlı qüvvələrinin Ağdərə, Madagiz və digər yaşayış məntəqələrindən hərəkətə gətirmək istədiyi ehtiyat qüvvələri bölmələrimiz tərəfindən önləyici zərbələrlə dağıdıldı.











## Horadiz şəhəri və Araz çayı boyu Cəbrayıl rayonunun bəzi kəndlərinin düşmən təhlükəsindən qorunması məqsədilə Lələtəpə yüksəkliyi və ətrafındakı strateji ərazilər azad edildi

Düşmənin atəş nöqtələrinə və artilleriya qurğularına vurulan zərbələr, kəşfiyyat qruplarımız tərəfindən yüksək peşəkarlıqla həyata keçirilən müvafiq tədbirlər nəticəsində şimal istiqamətində - Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış məntəqəsi ətrafında, cənubda isə Horadiz şəhəri və Araz çayı boyu Cəbrayıl rayonunun bəzi kəndlərinin düşmən təhlükəsindən qorunması məqsədilə Lələtəpə yüksəkliyi və onun ətrafındakı strateji cəhətdən mühüm ərazilər azad edildi. Bölmələrimiz tərəfindən azad edilən ərazilərdə yeni mövqelər quruldu və mühəndis-istehkam tədbirləri həyata keçirildi.

Erməni silahlı qüvvələri bu döyüşlərdə böyük itkilərə məruz qaldı. Rəsmi məlumatlara görə, 320-dən artıq düşmən məhv edildi və 500-dən artıq erməni hərbi qulluqçusu yaralandı. Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, Madagiz yaşayış məntəqəsinə yerləşən qərargahı və əsas hərbi hissələri məhv edildi. Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılması imkanı əldə edildi.

## Azərbaycan Ermənistan rəhbərliyinin yalvarışlarından sonra qarşılıqlı qaydada hərbi əməliyyatları dayandırmağa razı oldu

ŞANLI TARİX!

Həmin vaxtda da Azərbaycan Ordusu düşmənə qarşı öz ərazilərimizdə əməliyyat aparıb. Bu baxımdan da beynəlxalq təşkilatlar, nüfuzlu ölkələr aprel döyüşləri ilə bağlı Azərbaycan əleyhinə heç bir söz deyə bilməzdilər. Azərbaycan Ermənistan rəhbərliyinin yalvarışlarından sonra qarşılıqlı qaydada hərbi əməliyyatları dayandırmağa razı oldu və bununla da münaqişənin sülh yolu ilə həllinə üstünlük verdiyini bir daha nümayiş etdirdi.

O cümlədən, Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini, ədalətin bərpa olunacağını göstərdi.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Aprel döyüşlərində əldə edilmiş qələbə ilə bağlı bu sözlərini bəyan etmişdi. SİTAT: “Biz sadəcə olaraq çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq son illər ərzində aldığımız ən müasir, - mən onu bir daha qeyd etmək istəyirəm, - dünyanın ən müasir silahları bizə çox böyük imkan yaradır. Aprel döyüşləri zamanı biz sadəcə olaraq imkanlarımızın cüzi bir faizini nümayiş etdirdik. Bu, bir daha onu göstərir ki, Aprel döyüşləri Ermənistanın təxribatı idi”.

Prezident İlham Əliyev bu sözləri ilə onu da vurğulamışdı ki, Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövlətinin yaradılmasına heç vaxt icazə verilməyəcək. “Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi Azərbaycanın tərkibində həmişə olub, bu gün də onun tərkibindədir, gələcəkdə də olacaq”.

Artıq bu sözlər də yerinə yetirilib - ötən ilin sentyabr ayının 27-də düşmənə qarşı başladılan əks-hücum əməliyyatları 44 gün davam etdi və torpaqlarımızın yağı düşməndən azad olunması ilə nəticəsini tapdı. Cənab İlham Əliyevin “Qarabağ Azərbaycandır!” kəlamı özünü Qarabağ cəbhəsində isbatladı. Məhz bu gün qələbədən ruhlanan Azərbaycan xalqı da qürurla xatırlayır ki, Qarabağ zəfərinin başlanğıc nöqtəsi Aprel müharibəsində qazanılan qələbənin nidalı sübutudur!

***Rövşən NURƏDDİNOĞLU***

***P.S. Bu gün Aprel döyüşləri kimi tarixə düşən dördgünlük müharibənin 5-ci ildönümüdür. Döyüşlərdə həlak olan bütün hərbçilərimizi dərin hüznlə anırıq.***

















# Ətraf mühiti çirkləndirənlər, diqqətli olun

**Ətraf mühit həyatın keyfiyyətinə, yaşayış şəraitinə və insanın səhhətinə təsir edən komponentlərin məcmusudur. Atmosfer havası, su, torpaq, yerin səthi, heyvanat və bitki aləmi ətraf mühitin komponentləridir. Təəssüf ki, biz insanlar çox vaxt bu komponentlərə zərər veririk. Ətraf mühitin çirklənməsi təbiətə birbaşa və ya dolayısı ilə ziyan vurur.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sektor müdiri Mehman Nəbiyevin SİA-ya açıqlamasında bunları deyib: "Bildiyimiz kimi, 2019-cu ilin fevral ayının 7-dən cənab Prezident tərəfindən plastik qablaşdırma tullantılarının ətraf mühitə təsirinin azaldılması ilə bağlı 2019-2020 tədbirlər planı təsdiq olunub. Bu tədbirlər planında polietilen plastik məhsulların azaldılması, təkrar emal proseslərinin gücləndirilməsi və ölkədə ümumiyyətlə tullantıların o cümlədən, plastik tullantıların idarə olunması ilə bağlı idarə etmənin qurulması nəzərdə tutulur. Bu tədbirlərdən biri də qeyd etdiyimiz kimi, polietilen torbaların bir hissəsinin tədricən məhdudlaşdırılması, yeni onların alternativləri ilə əvəz olunması prosesləri nəzərdə tutulur".

O həmçinin qeyd edib ki, ölkəmiz üçün ətraf mühitin çirklənməsi, polietilen torbaların düzgün istifadə edilməməsi və yandırılması insan sağlamlığına, ətraf mühitin çirklənməsinə səbəb olur: "Eyni zamanda bildiyimiz kimi, bizim ölkəmiz kənd təsərrüfatı ölkəsidir. O torpağa da düşdükdə torpağın münbitliyinə, məhsuldarlığına ciddi zərər vurur. Polietilen torbalarla yanaşı, plastik butulkalar, plastik qablarla bağlı artıq bir sıra tədbirlər görülür. ETSN tərəfindən Bakıda və ölkə üzərində regionlarda xüsusi konteynerlər quraşdırılıb. Təkrar emal müəssisələri həmin o konteynerlərdə toplanılan plastik qabları bir dəfə istifadə olunmaq üçün təkrar emala cəlb edirlər".

Ətraf mühitin çirklənməsi nədir?

Çirklənmə - hər hansı mühitə yeni və ona xas olmayan fiziki, kimyəvi və bioloji ünsürlərin gətirilməsi ya da o ünsürlərinin miqdarının mühitdə artmasıdır. Ətraf mühitin çirklənməsinin birbaşa obyektləri bioloji cəmiyyətin yaşadığı hava, su və torpaqdır. İnsanların yaşadıqları təbiətə verdiyi hər cür zərər ətraf mühitin çirklənməsini təşkil edir. Təbii mühitin çirklənməsinin əsas mənbəyi istehsal və cəmiyyətin həyat fəaliyyəti prosesində əmələ gələn külli miqdarda tullantıların atılmasıdır. Fabriklərdən çıxan tullantılardan tutmuş şəxsi qayğıda istifadə etdiyimiz sadə dezodorantlara, təyyarələrdən və ya avtomobillərdən gələn qazlardan tutmuş kiçik plastik torbalara qədər bir çox şey ətraf mühitin çirklənməsini yaradır.

Bəs, ətraf mühitin çirklənməsinin səbəbləri nədir?



Sadə formada desək, təbiətə zərər verən hər şey ətraf mühitin çirklənməsinə səbəb olur. Bu səbəblərdən ən diqqətçəkən məqamlar bunlardır:

1.Əhalinin sürətli artımı
2.Planlaşdırılmamış şəhərsalma
3.Planlaşdırılmamış sənayeləşmə
4.Təbii qaynaqların müddətsiz istifadəsi fabriklər tullantılarını məhdudlaşdırmaması, təbiətə tullantıların atılması, eşidilən stimulların lazımsız istifadəsi, məişət və tibbi tullantıların təkrar emalı
5.Bioloji parçalanmayan plastiklərin həddindən artıq istifadəsi
6.Vəhşi heyvanların nəzarətsiz qırılması və məhv edilməsi
7.İstixana qazı yayan vasitələrin geniş yayılması
8.Kimyəvi tərkibli məhsulların həddindən artıq istifadəsi
9.Radiasiya yayan texnoloji cihazların həddindən artıq istifadəsi

Ətraf mühitin çirklənməsinin növləri hansılardır?

Yaşayış sahələrimizi məhv edən ətraf mühitin çirklənməsi növlərinə bölünür:

Hava çirklənməsi: İstiləşmə üçün istifadə olunan yanacaqların nəqliyyat vasitələrinin tullantılarından atılan zəhərli qazlarla birlikdə nəzarətsiz buraxılması nəticəsində yaranan ətraf çirkliliyinin bir növüdür.

Səs-küy çirklənməsi: Təbiətdəki bütün canlıları narahat edən ətraf mühitin çirklənməsinin bir növüdür, bunun səbəbi lazımsız yerlərdə səs gücləndiricilərinin istifadəsi və əsasən nəqliyyat vasitələrinin mühərriklərinin narahatlıq səsləri, hava fişəngləri kimi partlayıcı maddələr və buna bənzər elementlərdir.

Suyun çirklənməsi: Sənaye tullantılarının və kanalizasiya tullantılarının dənizlərə atılması nəticəsində baş verən çirklənmədir. Bu çirklənmə yalnız dənizlərdə yaşayan canlıları deyil, bütün təbii tarazlığı mənfi təsir edir.

Torpaq çirklənməsi: Tullantılar təkrar emal olunmadıqda və olduğu kimi təbiətə atıldıqda meydana gələn ətraf mühitin çirklənməsi növüdür. Torpağın çirklənməsi insan həyatını ciddi şəkildə təhlükə altına qoyur, xüsusən də torpaqda yetişən qida maddələri ilə vücudumuza daxil olduğu kimi, yaşayış həyatına da zərər verir.

Radioaktiv çirklənmə: Nüvə stansiyalarının yaratdığı ətraf çirkliliyinin bir növüdür. Silah fabriklərindəki artım və bu sahələrdə görülən işlərin bu çirklənmənin artmasında böyük payı var. Radioaktiv çirklənmənin nəticələri ağır ola bilər, buna görə müalicə olunmayan xəstəliklərin meydana gəldiyini söyləmək olar.

Ətraf mühitin çirklənməsinin qarşısını necə almaq olar?

Hər fərd yaşadığı mühitə qarşı ehtiyatlı davranmalı və çirklənməyə səbəb ola biləcək hər hansı bir davranışdan çəkinməlidir. Fərdi şəxslərin və qurumların çirklənmənin qarşısını almaq bir sıra vəzifələri yerinə yetirməlidir:

1.Təkrar emal üçün yararlı məişət tullantılarının qruplaşdırılması
2.Tullantı yağlarının torpaq və su ilə qarışmasının qarşısının alınması
3.Radiasiya yayan cihazların istifadəsinin azaldılması
4.Ağ məhsullarda minimum istixana qazı emissiyası olan məhsullara üstünlük vermək
5.Plastik istifadəsinin azaldılması, plastik əvəzinə şüşə butulkalara və parça torbalara üstünlük verilməsi
6.Dezodorantların istifadəsinin azaldılması
7.Fabriklərdən gələn tullantıların və qazların məhdudlaşdırılması
8.Yanacaqla işləyən nəqliyyat vasitələri yerinə elektrikli vasitələrə üstünlük vermək
9.Səs stimullarından yalnız lazım olduqda istifadə etmək
10.Təbiətin şüursuz məhvinin qarşısının alınması

***Arzu Qurbanlı***

**Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının qeyri-rəsmi Zirvə Görüşündə çıxışını əsasən Qarabağ mövzusuna həsr etdi. Bu, növbəti dəfə Azərbaycan Prezidentinin bütün platformalarda Azərbaycanın milli maraqlarını prinsipiallıqla ifadə və müdafiə etdiyini aydın göstərir?**

# "İlham Əliyev siyasi iradəsi - Qələbə və quruculuğun rəhni kimi"

### Azərbaycan peyvənd olunmuş əhalinin faizinə görə MBD regionunda liderliyi ilə bağlı siz nə düşünürsünüz

"Prezident İlham Əliyev bütün beynəlxalq platformalarda etdiyi çıxışları ilə auditoriyanın diqqətini ölkəmizə cəlb edir. Təbii ki, Prezidentimiz etdiyi hər bir çıxışında Azərbaycanın milli maraqlarını prinsipiallıqla ifadə və müdafiə edir. Əgər 44 günlük Vətən müharibəmizə qədər olan dövrdə cənab Prezident münaqişənin sülh danışıqlar yolu ilə həll olunmasına, BMT TŞ-nın qətnamələrini beynəlxalq hüquq normaları çərçivəsində həll edilməsinə mandat verilmiş təşkilatın ədalətli mövqe sərgilnməsinin tələb edilməsinə yönəldilmişdisə, TDƏŞ-nın Zirvə Görüşündə etdiyi çıxışı isə post-müharibə dövründə yaranmış yeni reallığa uyğun edildi. Yeni reallıq işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması və bərpası, qonşu dövlətlə kommunukasiyaların açılması və Zəngəzur dəhlizin istifadəyə verilməsi və bölgədə davamlı sülhün təmin edilməsidir.

Prezidentimizin sədrliyi ilə keçirilən Zirvə Görüşünün gündəliyin zənginliyi və perspektivləri cəhətdən böyük əhəmiyyəti vardır. Bu əhəmiyyət türkdilli dövlətlər arasında iqtisadi və humanitar əməkdaşlığının genişlənməsinə xidmət edir. 2020-ci il qlobal pandemiya ilə əlaqədar ölkələr arasında canlı təmasların məhdudlaşmasına baxmayaraq Azərbaycanın sədrliyi ilə türk dövlətləri arasında əlaqələr möhləmlənib, ölkəmizin üzərindən daşınan qeyri-neft yüklərin avtomobillə daşınmalarında 52% artım əldə olunub. Aprel ayında Bakıda türkdilli ölkələrin nazirlərinin iştirakı ilə görüş və Biznes Forumun keçirilməsi, həm də gələcəkdə Zəngəzur dəhlizinin açılması təşkilata üzv ölkələri arasında iqtisadi və humanitar sahələrin inkişafında yeni üfüqlər açacaqdır".



Azərbaycan Dövlət başçısı Cənab İlham Əliyevin başçılığı ilə 30 illik erməni işğalından azad edilmiş ərazilərin bərpası və yerləşməsi üzərində işlər davam edir. Ilk öncə ərazilərdə minalardan təmizmələ işləri aparılır. Həmçinin yol infrastrukturu qurulur, aeroportlar inşa edilir. Bu onu göstərir ki, Azərbaycan işğaldan azad edilmiş ərazilərdə sistemli bir fəaliyyət içindədir. Dövlət bütün qurum və təsisatları ilə işğaldan azad edilmiş ərazilərin Vətənin bütövlüyünə inteqrasiya prosesində iştirak edirlər. Ayrı-ayrı qurumlar və səlahiyyətli şəxslər qarşısında bu məsələlərlə bağlı olaraq ciddi vəzifələr qoyulmuşdur. Bu vəzifələrin icrasının şəffaflığının təmin edilməsi birbaşa Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nəzarətindədir.

Eyni zamanda işğaldan azad edilmiş ərazilərin yenidən qurulması işi Birinci Vitse Prezident Mehriban xanım Əliyevanın da ciddi nəzarətindədir. Bir sıra mədəniyyət abidələrinin bərpası və yenidən qurulmasında Heydər Əliyev Fondu da yaxından iştirak edir. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təlimatına əsasən bir qrup mütəxəssis işğaldan azad edilmiş ərazilərdə ermənilər tərəfindən dağıdılmış dini abidələrin və məscidlərin bərpası layihəsi üzərində artıq işə başlamışdır.

"Böyük qayıdış" proqramı çərçivəsində qaçqınların vətənlərinə qayıtması üçün tədbirlər birbaşa Azərbaycan Prezidenti İlham Əliyevin əmri və nəzarəti altında həyata keçirilir. Azad edilmiş ərazilərin bərpası üçün 2021-ci il üçün dövlət büdcəsindən 2,2 milyard manat (1,29 milyard dollar) ayrılmışdır. Bu məbləğ ilkin vəsaitdir, dövlət əlavə olaraq yeni bərpa işləri üçün də vəsait ayıracaqdır. Beləliklə, biz görürük ki, Azərbaycan dövləti birbaşa İlham Əliyevin siyasi rəhbərliyi ilə ölkəmizin qaytarılmış torpaqlarını vahid siyasi-iqtisadi məkanımıza inteqrasiya edilməsi üçün əlindən gələni edir. Azərbaycan bu günləri 30 ildir gözləyir. İlham Əliyevin siyasi iradəsi ilə həyata keçirilən bu işlər xalq tərəfindən də güclü rəğbət görür.

Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi ilə işə başlayıbdır. Paralel olaraq bölgədə ilk infrastruktur layihələri həyata keçirilir.

Azərbaycanın mədəniyyət paytaxtı - Şuşaya iki yeni yol çəkilir. Tikintidə türk şirkətləri yaxından iştirak edir. Yollardan birinin payıza qədər hazır olması gözlənilir. Türk şirkətlərinin yenidən qurma işinə cəlb edilməsi iki qardaş xalq arasında münasibətlərin daha da güclənməsinə gətirib çıxardacaqdır. Türkiyə bir qardaş dövlət olaraq bütün resursları ilə daim yanımızda olmuş, bizə öz mənəvi, siyasi dəstəyini göstərməyə hazır olmuşdur. Türkiyənin bizimlə olması ölkəmizin xarici təzyiqlərdən qorunmasında xüsusi rol oynamışdır. Türkiyənin şirkətləri də azad olunmuş ərazilərimizin bərpasında iştirak etmək üçün xüsusi fəallıq göstərirlər. Bir qrup Türkiyə şirkətilərinin nümayəndələrin ölkəmizə səfər edərək azad edilmiş ərazilərdə bərpa fəaliyyətinə cəlb edilmək üçün müraciətləri yüksək siyasi rəhbərlik tərəfindən olduqca müsbət dəyərləndirilir. Ərazilərin bərpasından sonra bura qayıdacaq insanların işlə təmin olunması məsələsində türk şirkətlərinin də rolu böyük olacaqdır.

Bununla belə digər ölkələrdən də investisiya və şirkətlərin bərpa prosesinə cəlb edilməsi də nəzərdə tutulur. Bunu İtaliya nümayəndəliyi ilə görüşündə Ölkə Başçısı İlham Əliyev aşağıdakı kimi ifadə etmişdir: "İlk müqavilələr türk şirkətləri ilə bağlanılıb və bu da təbiidir, çünki Türkiyə qardaş ölkədir. Ümidvaram ki, növbəti müqavilələr italyan şirkətləri ilə imzalanacaq. Bu da təbiidir. Çünki İtaliya Azərbaycanın yaxın dostudur.". Dövlət başçısının bu siyasi kursu uğurlu xarici siyasətin də komponentidir. Çünki İtaliya şirkətlərinin bölgədə fəaliyyəti həm də ölkə həqiqətlərimizin Avropada təbliği üçün də önəm daşımaqdadır.

Qərbi Avropanın mühüm ölkəsi olan Böyük Britaniya Qarabağın azad edilmiş ərazilərinin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərində Azərbaycana kömək göstərə biləcəyini bildirmişdir. Təbii ki, bu da əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş, daha sonra onun layiqli davamçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş xarici siyasətin nəticəsidir.

Bütün bu fəaliyyətlər İlham Əliyev siyasi xarizmasının nəticələridir. Qələbədən sonra Ali Baş Komandanın özü Ağdamı və Füzulini gəzərək azad edilmiş ərazilərə səfər etdi və müvəffəqiyyətin göstəricisinə çevrilən möhtəşəm Zəfər Paradı keçirdi. Cəmiyyətin səfərbərliyi, Türkiyə ilə yeni bir birlik səviyyəsi, koronavirusla uğurlu mübarizə bu da İlham Əliyevin xidmətidir. Bu gün Azərbaycan milli maraqlarını müdafiə edən uzaqgörən və təcrübəli bir siyasətçinin rəhbərlik etdiyi güclü ordusu və güclü iqtisadiyyatı ilə bölgədə hərbi-siyasi və iqtisadi lider hesab olunur. Bütün bunlar bizi də məsuliyyətli olmağa təşviq edir. Məhz Dövlət Başçısını nümunə almaq hər dövlət məmurunun başlıca vəzifəsidir.

***Bəxtiyar Nəbiyev***
***Bakı Dövlət Universitetinin Tarix fakültəsinin dekan müavini, dosent***

## Peyvəndlərin təsiri gələn il bitəcək?- XƏBƏRDARLIQ EDİLDİ




Elm dünyası mövcud korona peyvəndlərinin təsirini itirə biləcəyinin xəbərdarlığını edib. Əksər elm adamları peyvəndlərin dəyişdirilməli olacağını düşünür. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, koronavirusa qarşı hazırlanmış peyvəndlər üçün qorxulu bir açıqlama gəlib. Xəbərə görə, dünyanın hər yerindən tədqiqatçılar, mövcud peyvəndlərin təsirini azaldacaq mutasiyalara qarşı xəbərdarlıq ediblər. 28 ölkədən 77 alimdən ibarət bir sorğuda, üç tədqiqatçıdan ikisi peyvəndlərin dəyişdirilməli olacağı iddiasını dəstəkləyib. Bu vəziyyət üçün 2022-ci ilin əvvəlinə işarə edib. Komandanın yüzdə 88-i, qlobal peyvənd işindəki haqsızlığın yeni mutasiyanın ortaya çıxmasında təsirli olacağını düşünür.

Hər 100 vaksindən 76-sı 10 ölkəyə gedib. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) mövcud peyvənd dozalarının yüzdə 76-nın yalnız 10 ölkə tərəfindən istifadə edildiyi barədə məlumat paylaşıb. Eyni açıqlamada bu günə qədər 576 milyon peyvənd verildiyi və yalnız 32 milyon dozanın ola biləcəyi vurğulanıb. Covax təşəbbüsü ilə 60 yoxsul ölkəyə paylanıb.

***Ayşən Sadıxzadə***

## Məktəblər bağlandı, yeni qadağalar ola bilər?



Məktəblərin bağlanması infeksiyanın yayılmasının qarşısının alınması yollarından biridir. Əsas məqsəd odur ki, insanlar bir-biri ilə az təmasda olsunlar. Bunu "İki sahil"ə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü Musa Quliyev deyib.

M.Quliyev bildirib ki, koronavirusun yeni ştammına artıq uşaqlar da yoluxur: "Uşaqlar daşıyıcı olmaqla evdəki insanları da yoluxdura bilirlər. Uşaqlar məktəblərdə uzun müddət bir-biriləri ilə təmasda olurlar və çox zaman da qaydalara əməl etməkdə onlara nəzarət etmək çətin olur. Bu mənada, məktəblərin distant tədrisə keçidi virusun yayılmasının qarşısını almaq üçün atılan addımlardan biridir.

Təbii ki, Operativ Qərargah hər şeyin monitorinqini aparır və yaxın günlərdə virusa yoluxmalarda artım davam etsə, başqa məhdudlaşdırıcı tədbirlərin görülməsi zərurəti də ortaya çıxacaq. Bir daha vətəndaşlarımızı tam məsuliyyətli olmağa, karatin qaydalarına ciddi əməl etməyə çağırıram. Eyni zamanda, vaksinasiyanın aktivləşdirilməsinə ehtiyac var və insanlar da bu prosesdə aktivlik göstərməlidir".

## Ağcabədidə 31 Mart Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş videokonfrans keçirilib

YAP Ağcabədi rayon təşkilatının, Ağcabədi rayon icra hakimiyyətinin, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin Ağcabədi bölgəsi üzrə şöbənin, Ağcabədi rayon gənclər və idman idarəsinin nümayəndələrinin iştirakı ilə 31 mart Azərbaycanlıların Soyqırımının 103-sü ildönümü münasibətilə videokonfrans keçirilib.

Konfransı YAP Ağcabədi rayon təşkilatının aparat rəhbəri Nazim Bünyatov açaraq 1918-ci ildə mart ayının 30-dan aprel ayının 3-vək erməni millətçilərinin Bakı şəhəri, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvanda və digər bölgələrdə törətdikləri kütləvi qətllər, talan və etnik təmizləmələr aparması barədə məlumat verib. O qeyd edib ki, həmin dövrdə ermənilərin törətdikləri vəhşiliklər, xüsusi amansızlıqla törədilmiş, dəhşətli hadisədir. Ermənilərin əsrlər boyu məqsədyönlü olaraq xalqımıza qarşı etnik təmizləmə və soyqırımı siyasəti faktlar, rəqəmlər, sənədlər və arxiv materialları ilə sübut edilib. Ermənilərin Azərbaycanda törətdikləri soyqırım hadisələrinin yaddaşlarda qalması, gələcək nəsillərə ötürülməsinə rəsmi yanaşma baxımından Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunması çox böyük siyasi əhəmiyyət daşıyır. N.Bünyatov çıxışında onu da qeyd edib ki, ermənilərin yüz illər boyu davam edən vəhşiliyinin cavabı 44 günlük Zəfər Müharibəsində verildi. İstər çar Rusiyası dövründə, istər bolşevizim, istərsə də sovet dönəmində Xocalıda törədilən soyqırımında amansızlıqla qətlə yetirilən soydaşlarımızın qisası alındı. Bu qələbə ölkə rəhbərliyi, Ordu və xalqın sarsılmaz ittifaqı nəticəsində əldə edildi.



Tədbirdə Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin Ağcabədi bölgəsi üzrə şöbə müdiri Əlizadə Nəcəfov, rayon Heydər Əliyev Mərkəzinin direktoru Rövşanə Əliyeva, Ağcabədi rayon gənclər və idman idarəsinin rəis müavini Eldəniz Qənbərov, gənc YAP fəalı Əliş Həsənli, Ağcabədi rayon icra hakimiyyəti yanında yetkinlik yaşına çatmayanların işləri üzrə və hüquqlarının müdafiəsi üzrə komissiyasının məsul katibi Vüsalə Məmmədova çıxış edərək mövzu ilə əlaqədar öz fikirlərini konfrans iştirakçıları ilə bölüşüblər.

***Zümrüd***

# DOST mərkəzləri tam şəffaf mexanizmlər üzərində qurulub







**Davamlı inkişafı və spesifik milli inkişaf modeli ilə tanınan Azərbaycanın uğurlu inkişafı təmin edilib, həyata keçirilən siyasi-iqtisadi idarəçilik modeli nəticəsində, ölkəmizdə bütün sahələrdə uğurlar və yeniliklər əldə olunub. Azərbaycan modeli dünya ölkələri üçün nümunəyə çevrilib. Azərbaycanda həyata keçirilən iri layihələr, islahatlar bir daha təsdiqləyir ki, ölkəmizin gələcəyi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, güzəranının yaxşılaşdırılması sahəsində atılan addımlar insanların xoşbəxt gələcəyinin təminatına yönəldilib.**

Müasir dövrümüzdə Prezident İlham Əliyevin sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsidir. Ölkə başçısının "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin məqsədi də hər bir Azərbaycan vətəndaşının yanında olmaq, məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsidir. Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və Prezident İlham Əliyevin Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan agentliyin sayca 4-cü DOST Mərkəzi də artıq istifadəyə verildi. Bakının Binəqədi rayonu, Ziya Bünyadov prospektində yerləşən 4 saylı DOST Mərkəzinin açılışında Prezident İlham Əliyev iştirak edib.

DOST Agentliyi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, "bir pəncərə"dən, tam şəffaf, operativ, vətəndaş rahatlığı, nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir. Yeni istifadəyə verilən DOST Mərkəzi əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, əlillik, əmək və məşğulluq, övladlığa götürmə, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza sahələri üzrə bütövlükdə 132 xidmət göstərəcək. Mərkəzdə 230 nəfərdən çox əməkdaş, habelə "Könüllü DOST" proqramı üzrə 50 nəfər könüllü gün ərzində orta hesabla 800 vətəndaşın qəbulunu həyata keçirəcəkdir. "DOST" Mərkəzinin tərkibindəki "Çağrı Mərkəzi" ölkə üzrə gündəlik 5 minədək zəng qəbuluna şərait yaradır. "ART School" - "İnklüziv İncəsənət Məktəbi" isə ildə orta hesabla 150-200 əlilin təlimlərdən keçməsinə imkan verəcək. İndiyədək DOST mərkəzlərində xidmət göstərilən 330 mindən çox şəxsin məmnunluq dərəcəsi 97,2 faiz təşkil edir.

Yaxın zamanda Abşeronda növbəti DOST Mərkəzi açılacaq, Quba, Sabirabad, Gəncə, Sumqayıtda da artıq bu istiqamətdə iş gedir. Ümumilikdə 16 regional mərkəzin yaradılması planlaşdırılır və önəmli prioritetlərdən biri də işğaldan azad olunmuş ərazilərimizlə bağlıdır ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq artıq Şuşada DOST Mərkəzinin yaradılması ilə bağlı işlərə başlanılıb. Azərbaycanda əhalinin sosial-rifah halının yüksəldilməsi, sosial məsələlərin həlli, həssas qrupların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması istiqamətində görülən işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Təsadüfi deyil ki, bu istiqamətdə həyata keçirilən tədbirlər ölkəmizdə etibarlı sosial müdafiə sisteminin formalaşmasına imkan yaradıb. Azərbaycan vətəndaşları mərkəzin məşğulluq, pensiya, sosial müavinət və təqaüdlər, sosial xidmətlər, əlillik, tibbi-sosial ekspertiza və reabilitasiya, sosial sığorta, əmək münasibətləri, həmçinin, sosial-hüquqi, sosial-məişət xidmətləri, sosial-pedaqoji və s. sahələr üzrə xidmətlərindən rahatlıqla yararlana bilirlər. Beləliklə, mərkəz vətəndaşların nazirlik üzrə bütün xidmətlərdən "bir pəncərə"yə müraciət etməsinə və "bir pəncərə"dən faydalanmasına imkan verir. Mərkəz vətəndaşlara məsləhət və məlumat xidmətləri də göstərməklə, onların bilavasitə, telefon və ya internet vasitəsilə müraciətləri əsasında, səyyar və digər üsullarla xidmətlərini həyata keçirir. Bu, "DOST" mərkəzlərinin ölkəmizin dövlət sosial xidmətləri sahəsində "ASAN xidmət"dən sonra Azərbaycanın yeni brendinə çevrilib. DOST layihəsi, artıq özünün dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb. Cənab İlham Əliyevin vurğuladığı kimi DOST mərkəzlərinin yaradılması sosial siyasətimizin mahiyyətini göstərir. Əlbəttə ki, Azərbaycanda həyata keçirilən sosial siyasətin əsas məqsədləri əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması və əhalinin rifah səviyyəsinin yüksəldilməsidir. Bu istiqamətdə aparılan islahatlar, görülən işlər dövlətimiz vətəndaşın mənafeyinə xidmətini ifadə edir.

*Nəzakət ƏLƏDDİNQIZI*

## Avropa İttifaqında vaksin qarşıdurması



Berlin Rusiyanın "Sputnik V" peyvəndinin Avropa İttifaqına tədarükü ilə bağlı Moskva ilə əməkdaşlıq ideyasını irəli sürür, Paris isə buna qarşı çıxır. "Monde" qəzeti, Almaniyanın Rusiya ilə "əməkdaşlıqda israr etdiyini", Fransanın isə "müqavimət göstərdiyini" yazır. Ümumiyyətlə, qəzetin qeyd etdiyi kimi, Rusiya peyvəndi məsələsi Avropa İttifaqında bölünmə yaradıb. Avropa Komissiyasının hələ "Sputnik V"-nin istehsalçısı ilə danışıqlar aparmadığı, ancaq bəzi Avropa mənbələrinin bunun özünü çox gözlətməyəcəyinə inandığı bildirilir. RİA Novosti xəbər verir ki, Almaniya da daxil olmaqla bəzi Aİ dövlətlərinin "Sputnik V" vaksininin alınması üçün təzyiq göstərdikləri vurğulanır. Bu vaskinin effektivlik göstəricisinin digərlərindən daha yüksək olması və qiymətinin daha münasib olması qeyd olunur.

Qeyd edək ki, Rusiya prezidenti Vladimir Putin, Almaniya kansleri Angela Merkel və Fransa prezidenti Emmanuel Makron videokonfrans vasitəsilə danışıqlar aparıblar. Kremlin verdiyi məlumata görə, "Rusiya vaksini "Sputnik V"-nin Avropa İttifaqında qeydiyyatı perspektivlərini, bu dərmanın Aİ ölkələrində mümkün tədarükü və birgə istehsalını" müzakirə ediblər. Almaniya Nazirlər Kabineti və Yelisey Sarayının mətbuat xidməti peyvəndin qiymətləndirilməsinin digər peyvəndlərə tətbiq olunan eyni standartlara uyğun olaraq aparıldığını qeyd edib.

*Elçin*

## Aİ ilə sıx əməkdaşlıq yeni geosiyasi çağırışlarda prioritet olmalıdır



"Avropanın Rusiyadan enerji asılılığını aradan qaldırmaq üçün ABŞ-ın apardığı siyasət İttifaqın güclənməsinə və Moskvadan asılılığına son qoymasına əsaslanır. Son 15 il ərzində Rusiyanın əsas gəlir mənbəyi Avropaya satdığı qazdan formalaşır. Bu gün İttifaqın 40% qazlaşmasını Rusiyanın Qazprom şirkəti həyata kçirir. Avropaya çəkilən neft və qaz kəmərləri Rusiyanın Avropanın təhlükəsizliyini təhdid edəcək bir faktora çevrilib". Bunu SİA-ya açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib.

Politoloq bildirib ki, Avropaya qaz satışından daxil olan maliyyə hesabına Rusiya öz hərbi imkanlarını genişləndirib, Avropanın təhlükəsizliyini təhdid edəcək bir siyasət reallaşıb və bu siyasət hazırda davam etməkdədir: "Ukraynanın Şərqində işğal, Krımın annkesiyası və Baltikyanı ölkələrin təhdid edilməsi, Avropanın Rusiyaya qarşı birlik şəkilində fəaliyyət göstərməməsindən qaynaqlanır. Rusiya Avropanın ayrı-ayrı ölkələri və siyasətçiləri ilə sıx əlaqələr quraraq özünə qarşı birliyin dayanaqlılığına və vahid fikir formalaşmasına zərbə vurub. Putinin bu siyasəti bu illər ərzində səmərə verdiyini qeyd etmək olar. Məhz Putin Avropanın öz pulu ilə, Avropanı vurur. Rusiya məhz Avropada geniş şəbəkə quraraq bu ölkələrin mətbuatına da təsir edə bilir. Bu da informasiya savaşında Rusiyanın əlində ən böyük imkanlardan biridir. Rusiya Almaniya, Fransa və İtaliyada siyasi və ictimai formasiyaları idarə edə bilir və bu ölkələrin mətbuatından geniş istifadə etməklə, qonşu ölkələrə qarşı Avropanın siyasətinə təsir edə bilir. Burada Almaniya əsasən birinci yerdə gəlir. Almaniya Rusiyanın Avropada siyasi və enerji maraqlarının təmin olunmasında əsas ölkədir. Deməli olar ki, Rusiyanın apardığı siyasət Avropanın siyasi sefrasını zədələyib. Məhz Şərq Tərəfdaşlığı ölkələrinə qarşı siyasətin formalaşması, Ukrayanaya qarşı kəskin mövqe tutulmaması, birbaşa Moskvadan idarə edilir".

M.Əsədullazadə vurğulayıb ki, bu yaxınlarda Azərbaycan əleyhinə Almaniya mətbutında proqramlar birbaşa bu ölkədə Rusiyanın təsiri ilə reallaşıb: "Rusiya məhz Avropa mətbuatı vasitəsilə onunla əlaqələrə önəm verən qonşularına qarşı informasiya savaşı aparır. Məqsəd bu ölkələrlə Avropa İttifaqı arasında uçurum yartamaqdır. ABŞ-da C. Baydenin prezident seçilməsi ABŞ-Avropa əlaqələrinin normallaşmasına və Rusiyaya qarşı vahid cəbhədə birləşməsinə gətirib çıxarır. Məhz martın İttifaqın 25-26 keçirilən zirvə görüşündə Baydenin iştirakı və verdiyi mesajlar Avropanın Rusiyaya qarşı Vaşinqtonla eyni xətti davam etdiriləcəyinə hesablanıb. Bundan sonra Rusiyaya qarşı sanksiyaların kəskinləşəcəyi, Rusiyanın Avropanın Şərqində hərbi birlikləri və Ukrayanda vəziyyəti kəskinləşdirəcəyi gözlənilir. Beynəlxalq müstəvidə Qərblə Rusiya arasında davam edən konfontrasiya Azərbaycana da mənfi təsirləri qaçılmaz olacaq. Ona görədə Azərbaycan Avropa İttifaqı ilə əməkdaşlığı inkişaf etdirməli və çərçivə sazşini imzalamalıdır. Yeni siyasi nizamın formalaşması fonunda ABŞ- Avropa Birliyi bu posesdə Rusiya-Çin tandeminə qalib gələcək. Milli Cəbhə partiyası olaraq Azərbyacanın Avropa İttifaqı ilə çərçivə sazişini yubanmadan bağlanmasında maraqlıyıq. Çünki, regionda vəziyyət hər keçən gün dəyişir. Rusiyanı aqressiyası müdafiəsiz və zəif ölkələr qarşı daha da amansız olur. Ona görə də Avropa ilə sıx əməkdaşlıq yeni geosiyasi çağırışlarda pioritet olmalıdır".

*Aysel Məmmədova*

## Daha 2 248 nəfər COVID-19-a yoluxub 26 nəfər vəfat edib




Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 248 yeni yoluxma faktı qeydə alınıb, 860 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 26 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 263 961 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 238 985 nəfər müalicə olunaraq sağalıb, 3 593 nəfər vəfat edib, aktiv xəstə sayı 21 383 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 14 375, ötən müddət ərzində isə ümumilikdə 2 888 033 test aparılıb.

TƏHLİL

# İnternet xəstəlik, mobil telefon asılılıq yaradır

## Əgər ağıllı, qaydalara və tövsiyələrə uyğun yeni texnologiyalardan istifadə olunsa, insanlar bu sistemdən az ziyan çəkə bilər

***Müasir dövrün yenilikləri, təəssüflər olsun ki, bəzən özü ilə ciddi, narahatedici problemlər də gətirir. Yəni texnologiyanın həm üstünlükləri, həm də mənfi cəhətləri var. Deyək ki, internetin sürətlə inkişafı insanların düşüncəsinə, həyat tərzinə, yaşayışına müsbət təsirlər aşılayır. Ancaq internetdən, mobil telefonlardan çox istifadə bəzən asılılıq yaradır ki, bu da ağır psixi problemlər deməkdir. Yəni əvvəllər bəzi insanlar daha çox narkotikadan və alkoqollu içkilərdən əziyyət çəkirdilərsə, bu gün artıq o kateqoriyadan olan insanların sırasına internetdən və mobil telefonlardan asılı olan insanlar da qoşulub.***

Fakt budur ki, internetdən xoşməramlı məlumatların əldə edilməsi, mobil telefonlardan isə insanların birbiri ilə əlaqə saxlaması üçün nəzərdə tutulur. Bir tələbə və ya tədqiqatçı alim, araşdırmaçı jurnalist Cənubi Afrikanın hansısa tayfası və ya Sakit Okeanın yeraltı dünyası ilə bağlı məlumat əldə etmək istəyirsə, bunun üçün kitabxanalarda günlərlə axtarış aparmasına ehtiyac yoxdur, sadəcə kompyuterin arxasına keçib, internet vasitəsi ilə istədiyi məlumatı əldə edə bilər. İnternet sayəsində dünyanın hər yerində yazılmış orijinal məzmunun istənilən mətnini tapmaq olar. Eləcə də, küçədə gedərkən və yaxud xarici ölkələrdən birində olarkən mobil telefon vasitəsilə yaxınlarınla əlaqə saxlaya, onlarla haləhval tuta bilərsən. Halbuki, yaxın keçmişdə uzaq şəhərlərdə yaşayan qohumlarla əlaqə saxlamaq üçün gərəkdir ki, əvvəlcədən teleqram vurub, telefon danışığı üçün gün, saat müəyyənləşdirilməli və həmin vaxtda poçta gedib, əlaqə saxlanılmalı idi. Amma bu gün üzücü problemlər arxada qalıb.



### Mobil telefonda internet işləməyəndə insanlar narahat olur

Bu gün mobil telefon vasitəsilə istənilən an, istənilən şəxslə əlaqə saxlamaq mümkündür. Lakin mobil telefon ünsiyyət kommunikasiya vasitəsi kimi çoxlarımızda asılılıq yaradır. Çox zaman mobil telefonda internet işləməyəndə insanlar narahat olur, hay-küy salıb onun-bunun arxasınca təhqiramiz ifadələr səsləndirirlər. Elə gənclər var ki, bəzi kəndlərdə internet olmadığından o gözəl məkanlara getməkdən imtina edirlər. Gecə həyatı yaşayan gənclər də az deyil. Yəni bütün gecəni internet yazışmaları, söhbətləri ilə keçirən gənclər səhər açılanda yuxuya gedib, gün batanda oyanırlar. Bir-iki tikə çörək yeyib, yenidən mobil telefonunda internetə qoşulub gecə həyatına start verirlər. Bu isə gəncliyin sağlam həyat tərzinə ciddi zərbələr vurur. Hesab etmək olar ki, bu kimi ağrılı problemləri aradan qaldırmaq mümknsüzdür. Çünki artıq cəmiyyətlər bu texnalogiyandan asılı vəziyyətə düşüblər. Araşdırmalar təsdiq edir ki, mobil telefonlardan nəzərdə tutulan limitdən artıq istifadə edən insanların baş ağrıları, yorğunluq və sinir gərginliyi halları daha çox olur. Mobil telefonlardan daha çox istifadə yaddaşa, cinsi fəaliyyətə və psixoloji durumuna mənfi təsirlər göstərir. Psixoloqların fikrincə, insanlar mobil telefonlardan 3-5 dəqiqədən artıq danışmamalıdırlar, artıq danışıq insan beyninə ciddi zərər verir.

### Mobil telefondan artıq danışıq xəstəliklər yaradır

Bəzən belə fikir səsləndirilir ki, problemin qarşısını maarifləndirici işlər aparmaqla almaq olar. Ancaq nəzərə alınmır ki, şəxsin istifadəsində çoxfunksiyalı mobil telefon varsa, onu internetdən istifadə etməməyi qadağan etmək mümkünsüzdür. Yalnız bir çıxış yolu ola bilər, insanlar çoxfunksiyalı mobil telefonlar istifadə etməsinlər. Bu da mümkünüdürmü? Təbii ki, xeyr, qeyri-mümkündür. Görünən odur ki, bu gün insanlar daha çox çoxfunksiyalı telefonlar işlətməyə üstünlük verirlər. Araşdırma aparsaq məlum olur ki, gənclərin böyük əksəriyyəti 1500-2000 manat dəyərində müxtəlif markalı telefonlar işlədirlər, əksəriyyəti də, kreditə alınıb. Həmin gəncə sadə telefon təklif edilsə, o bunu özünə təhqir hesab edər. Bu baxımdan hazırkı mərhələdə gəncləri çoxfunksiyalı mobil telefon işlətməkdən çəkindirmək mümkünsüzdür. Bunun üçün zamana ehtiyac var. Koronavirus pandemiyasının tüğyan etdiyi hazırkı dönəmdə Ümumdünya Səhiyyə Təşkilatı həm də mobil telefonların insan sağlamlığına vurduğu zərərin miqyasından narahatlığını ifadə edən məlumat yayıb. ÜST-ın apardığı araşdırmalardan sonra gəldiyi qənaətə görə, mobil telefonlardan çox istifadə edən insanlarda xərçəng xəstəliklərinin yaranma ehtimalı daha böyükdür. Nəticələrə görə mobil telefon aludəçiləri 50 faiz daha çox xərçəng xəstəliklərinə tutulurlar. Müasir mobil telefonlarla danışan zaman bir dəqiqə ərzində insan beyninə 217 elektromaqnit impuls ötürülür. Təbii ki, bu "zərbə"lərə hamı tab gətirə bilmir.

### İnternetdən istifadə edən uşaqlarda psixoloji problemlər yaranır

Tədqiqatlar təsdiq edir ki, məktəb yaşlarında olan uşaqların mobil telefonlardan istifadə etmələri onlara olduqca mənfi təsir göstərir. Məhz bunu nəzərə alan mütəxəssislər 6-14 yaşda olan uşaqların mobil telefonlardan istifadə etməmələrini tövsiyə edirlər. İsveçdə aparılmış tədqiqatların nəticələrində aydın olub ki, 8-12 yaşlarında mobil telefondan istifadə edən uşaqlarda artıq 21 yaşlarında beyin şişləri, 18 yaşdan sonra mobil telefonlardan istifadə edənlərdən beş dəfə çoxdur. Tayvanlı alimlərin araşdırmaları nəticəsində məlum olub ki, 6-7 yaşında uşaqların, yəni birinci sinif şagirdlər arasında uzaq görmə qabiliyyəti zəif olanlar 21 faizdirsə, yeddinci sinif şagirdləri arasında bu 65 faiz təşkil edir. Bu isə həmin yaşda olan uşaqların mobil telefonlardan daha çox istifadə etmələrinin nəticəsidir. Bu baxımdan demək olar ki, mobil telefonla daha çox uşaqların həyatına və gələcək inkişafına daha çox mənfi təsir göstərir. Amma razılaşaq ki, bu gün elə valideynlər var ki, 2-3 yaşlı uşaqlarının mobil telefonlardan istifadə etmələrindən fəxrlə daşırlar. Hətta 2 yaşlı övladına bahalı çoxfunksiyalı telefon alan valideynlər də var. Bununla həmin valideyn anlamır ki, artıq övladının sağlamlığına təhlükənin əsasını qoyur. Rusiya alimlərinin uzun müddət 5-12 yaşlı uşaqlar üzərində apardıqları araşdırmalar zamanı məlum olub ki, telefon istifadə edən uşaqlar mobil telefon istifadə etməyən yaşıdları ilə müqayisədə daha çox diqqət və yaddaş pozğunluğu, huşunuitirmə kimi hallarla qarşılaşırlar. ABŞ-da 1990-cı illərin sonunda doğulmuş 13 min uşaq üzərində araşdırma aparılıb. Müəyyən olunub ki, hamilə ikən gündə 2-3 dəfə mobil telefon istifadə edən anaların uşaqlarında davranış pozğunluğu 54 faiz yüksək olur. Uşağa 7 yaşından əvvəl mobil telefon verilirsə, onda davranış pozğunluğu 80 faiz daha çox yaranır.

Bir sözlə, dünya dəyişir. İnsanların həyat və yaşayışına təsir edən yeni texnologiyalar yaranır. Yuxarıda qeyd etdiyim kimi, yenilik özü ilə ciddi problemlər də gətirir. Əgər ağıllı, qaydalara və tövsiyələrə uyğun yeni texnologiyalardan istifadə olunsa, insanlar bu sistemdən az ziyan çəkə bilər. Əks halda yeni texnologiyalar ağır fəlakətlər yarada bilər.

***İ.ƏLİYEV***

## Bir doza vaksin bölünərək iki nəfərə vurulur?




"Sosial şəbəkələrdə yazılan hər bir fikrə hörmətlə yanaşıram, çünki hər bir insanın öz fikrini bildirmək hüququ var". Bunu APA-ya TƏBİB-in xəstəliklərin profilaktikası və kontrolu departamentinin rəhbəri Yaqut Qarayeva deyib.

TƏBİB rəsmisi bir doza vaksinin bölünərək iki nəfərə vurulması barədə iddialara münasibət bildirərəkən deyib ki, vətəndaşların hər hansı neqativ hadisə ilə bağlı konkret şikayəti varsa, bunun üçün mütləq rəsmi şəkildə müraciət etməlidir: "Bunu ümumi şəkildə qeyd etməməlidirlər. O zaman biz hadisəni araşdıra bilmirik. Bu gün səhiyyə sistemində 100 mindən çox insan çalışır. Respublikanın hər rayonunda məntəqələr açmışıq və vaksinasiya prosesi gedir. Əgər hər hansı məntəqədə nöqsanla qarşılaşırlarsa, mütləq onu konkret şəkildə bildirməlidirlər və bu, araşdırılmalıdır. Mənfi hallar xüsusi orqanlar, bu işlə məşğul olan insanlar tərəfindən araşdırılmalıdır".

Y. Qarayeva qeyd edib ki, bu gün Azərbaycanda vaksin çatışmazlığı yoxdur: "Ölkəmiz ilk günlərdən vaksinlə bağlı bütün istiqamətlərdə danışıqlar aparır".

Departament rəhbərinin sözlərinə görə, bir doza vaksinin bölünərək iki nəfərə vurulması ilə bağlı heç bir rəsmi şikayət almayıblar: "Biz də bunu sosial şəbəkələrdə oxumuşuq. Neqativ hallar daha çox növbələrlə bağlı olur. İnsanların bir yerə kütləvi toplanması ilə bağlı şikayətlər var. Bəzən şəkillər də göndərirlər. Xüsusən havalar soyuq olanda insanları açıq havada gözlədə bilmirdik. Amma çalışırıq ki, məsələyə dərhal reaksiya verək. Hansı rayonda, hansı məntəqədə belə hadisə baş veribsə, dərhal məntəqənin rəhbərləri ilə əlaqə saxlayırıq. Orada vəziyyəti tənzimləməyə, insanlar arasında sosial məsafənin gözlənilməsinə çalışırıq".

## "Hamılıqla vaksinləşmə prosesinə qoşulsaq..."

"COVİD-19 pandemiyası yayılmağa başlayanda virusun təsirini azaltmaq, bu bəladan daha az itki ilə çıxmaq üçün Azərbaycanda profilaktik tədbirlər görüldü. Artıq bir ildir ki,




bu tədbirlər davam edir. Azərbaycanda koronavirus qurbanlarının sayının digər ölkələrlə müqayisədə xeyli az olması da ilk növbədə bununla bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında Jurnalist Araşdırmaları Mərkəzinin sədri, yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə deyib.

Qeyd edib ki, Azərbaycan xalqı savadlı olduğu üçün təhlükəni vaxtında dərk etdi, dövlət tərəfindən tətbiq olunan məhdudiyyətləri anlayışla qarşıladı: "Eyni fikri vaksinləşmə prosesinə də şamil etmək oalr. Bu gün Azərbaycan peyvənd olunan əhalinin sayına görə MDB məkanında birinci yerdədir. Hesab edirəm ki, bayram tətili arxada qaldığı üçün qarşıdakı günlərdə bu proses daha geniş vüsət alacaq. Çünki peyvənd olunanlar olunmayanlara çağırış edir, onları həvəsləndirir. Təbii ki, bu prosesdə KİV-lərin rolunu danmaq olmaz. Yüksək səviyyədə təşkil olunan təbliğat kampaniyası da öz bəhrəsini verir".

Seymur Verdizadə deyib ki, peşə fəaliyyəti ilə əlaqədar olaraq peyvəndlənmə kampaniyasını yaxından izləyir: "Yaradılan şərait, tətbiq olunan mexanizm qənaətbəxşdir. Hamılıqla vaksinləşmə prosesinə qoşulsaq, bu bəladan daha az itliylə çıxa bilərik".

# Paşinyan bu gün istefa verir və siyasətdən gedir

**"Nikol Paşinyan istefasını və siyasətdən getdiyini bu gün elan edəcəkmi?". SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə "Joxovurd" qəzeti öz mənbələrinə istinadən yazır. Qəzet yazır ki, baş nazir Nikol Paşinyan bu gün istefa verəcək. Qəzetin yazdığına görə, Paşinyan siyasətdən getdiyini və parlament seçkilərində heç bir şəkildə iştirak etməyəcəyini elan edəcək.**



"Baş nazirin bir gün əvvəl komandası ilə bir yığıncaq keçirdiyini, ona ümid etməməli olduqlarını burada açıq şəkildə söylədiyini, artıq heç bir siyasi prosesdə iştirak etmək istəmədiyini öyrəndik.

"Mülki Müqavilə" partiyasının idarə heyəti üzvləri Paşinyanı razı salmağa çalışsalar da, baş nazir öz qərarında israrlı olduğunu deyib. Nikol Paşinyan hətta gələcəkdə nə edəcəyini belə söyləmək istəməyib", deyə qəzet yazır.

Xatırladaq ki, Ermənistan tərəfinin təxribatları nəticəsində başlayan və 44 gün davam edən müharibənin məntiqi nəticəsindən, yəni, Ermənistanın rüsvayçı məğlubiyyətindən sonra erməni cəmiyyəti Nikol Paşinyanın istefası tələbi ilə demək olar ki, hər gün etiraz aksiyası keçirib və onun istüfa verməsində israrlı olduğunu bildirib. Baxmayaraq ki, baş nazir növbədənkənar seçkilər barədə bəyan edib, Ermənistan müxalifəti seçkilərə Paşinyansız getmək qərarını gizlətməyib. Bir sözlə, Nikol Paşinyanın bu "növbədənkənar seçki oyunu" da baş tutmayıb və onun istefası tələbi hələ də erməni cəmiyyətində gündəmdədir, hələ də tələb olaraq qalır.

Görünür, Nikol Paşinyan erməni cəmiyyətində nüfuzunun sıfıra enməsindən mütləq şəkildə əmin olub və məsələni uzatmaqdan vaz keçib. Heç şübhəsiz ki, erməni baş nazirin öz postundan istefası barədə çoxdandır yayılan söz-söhbətlər belə əsaslı idi. Hazırda erməni nəşrinin öz mənbələrinə istinadən Nikol Paşinyanın istefa edəcəyi barədə yazması da təsdiqləyir ki, baş nazirin istefası qaçılmazdır və gözləniləndir.

*İnam Hacıyev*







# "Paşinyan Rusiyaya uyğun mövqe tutur"

**Azərbaycan bir daha beynəlxalq aləmə regional əməkdaşlığa və rabitə açılışlarına hazır olduğunu göstərir. Belə ki, ölkə Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının qeyri-rəsmi zirvə toplantısındakı çıxışı zamanı müharibənin başa çatdığını və artıq yeni imkanlar yarandığını, bunların arasında ən əhəmiyyətlisi nəqliyyat imkanlarının olduğunu xüsusilə vurğuladı. Söhbət Zəngəzur dəhlizinin açılması mümkünlüyündən gedir.**



Eyni zamanda, İrəvanın da bu məsələdə loyallıqdan çıxış etməsi və nəticə etibarı ilə yararlanması cəhdləri nəzərdən yayınmır. Lakin bütün bunlara baxmayaraq bəzi açıq suallar qalır və bununla bağlı Rusiyanın analitiki, iqtisadi məsələlər üzrə mütəxəssis Vladislav İsayev maraqlı detallara toxunub.

## "Robert Koçaryan Moskvadakı dəstəyini itirir"

SİA xəbər verir ki, rusdilli Caliber informasiya analitik mərkəzinin suallarını cavablandıran rusiyalı mütəxəssis hesab edir ki, hazırda Ermənistanda vəziyyət, növbədənkənar parlament seçkilərinin nəticələrindən də çox asılıdır. Lakin revanşistlərin iddialarından sonra onların hakimiyyətə yiyələnə bilmək şanslarının da olmasını nəzərə alarsaq, bu zaman Ermənistanın mövcud iqtidarının loyallığını müxalifətçilərin radikalçılıqları ilə dəyişiləcəyini görə bilərik.

"Nikol Paşinyan çıxışını bu cür davam etdirərsə, iqtisadi yaxşılaşdırmağa yönəlmiş nəqliyyat dəhlizlərinin açılmasına razılıq verəcək. Ermənistan baş naziri müharibə deyil, iqtisadi inkişaf tərəfdarı olan Rusiyaya uyğun bir mövqe tutur. Onun rəqibləri, yəni Ermənistanın ikinci prezidenti Robert Koçaryanı dəstəkləyən qüvvələr isə əksinə, Moskvadakı dəstəklərini itirirlər", deyə rus iqtisadçısı bildirib.

## Anlitik: "Ermənilər yalnız Azərbaycana qarşı deyil, Rusiyaya, Qərbə qarşı da aqressiya nümayiş etdirirlər"

İsayev Ermənistandakı rəngli inqilab mümkünlüyünə də toxunub və mövcud risklərin olduğunu istisna etməyib. Amma bütün hallarda inqilabın olmayacağı qənaətində olduğunu bildirib. O, bunu belə əlqələndirib ki, bu gün postmüharibə Ermənistanında emosiyalar üstünlük təşkil edir və ermənilər yalnız Azərbaycana qarşı deyil, Rusiyaya, Qərbə qarşı da aqressiya nümayiş etdirirlər. Lakin bunların hamısı geridə qalacaq, yalnız Nikol Paşinyanın hakimiyyəti əlində saxlayacağı halda.

"Bir daha təkrar edirəm, Nikol Paşinyan erkən seçkilərdə etimad mandatı alsa, mənə elə gəlir ki, Ermənistan regional layihələrə mane olmayacaq, iqtisadiyyat öz sözünü deyəcək", Vladislav İsayev İrəvanın bundan başqa çıxış yolunun olmadığını bildirib.

***Rövşən RƏSULOV***

# Ermənistanda seçkilər: Paşinyanın rəqibləri kimlərdir?

**"Gallup"ın dünən keçirdiyi sorğunun nəticələri onu göstərir ki, erməni cəmiyyətində hələ ki, Paşinyana güclü alternativ yoxdur. Hazırkı baş nazir bütün sorğularda 30 faizin üzərində nəticə göstərir ki, bu da təkbaşına olmasa da, koalisiyalı hakimiyyət qurmağa kifayət edir. Bunu Trend-ə politoloq Ceyhun Əhmədli deyib.**



C.Əhmədli bildirib ki, sonuncu sorğuda maraqlı bir detal diqqətdən yayınmadı: "Belə ki, revanşist qüvvələr kimi xarakterizə etdiyimiz siyasi qruplar ümumilikdə 11 faizdən yuxarı nəticə göstəriblər. Halbuki, əvvəlki sorğularda həmin qüvvələrə ümumi respondent etimadı 3-4 faizdən yuxarı olmurdu. Görünür, revanşist ideyaların təbliği ictimai rəyə təsirsiz ötüşməmişdir. Digər tərəfdən isə müharibə və pandemiyanın səbəb olduğu sosial-iqtisadi gərginlik dərinləşdikcə Paşinyanın reytinqinin aşağı düşməsi qaçılmaz olur. Xatırladım ki, "Gallup"ın əvvəlki ay keçirdiyi sorğu ilə müqayisədə Paşinyanın reytinqində 3 faiz azalma özünü göstərir".

Politoloqun sözlərinə görə, ötənaykı sorğu ilə müqayisədə "heç kimə səs verməyəcəm" deyənlərin faiz nisbətinin aşağı düşməsi, bunun paralelində isə revanşistlərin daha yüksək reytinq göstərməsi ondan xəbər verir ki, narazı təbəqə müxalifətə doğru meyillənməkdədir:

"İndi Paşinyanın əsas məqsədi həmin narazı kontingenti (hansı ki, 26 faiz kimi böyük rəqəmdən gedir) özünə qismən yaxınlaşdırmaqdır. Sorğuların nəticələri həm də onu göstərdi ki, kimə səs verməkdə qərarsız qalan erməni respondentlər təqribən 20 faiz təşkil edir. Dolayısı ilə erməni əhalisinin ümumilikdə 46 faizi hazırkı siyasi qüvvələrin heç birisinə inanmır. Bu fakt isə özü-özlüyündə yaxın gələcəkdə hakimiyyət böhranının yaşana biləcəyindən xəbər verir. Ən sadə formada ifadə etsək, indiki məqamda formalaşacaq hakimiyyət əhalinin təqribən yarısının (46%) iradəsini ifadə etməyəcək.

"Gallup"ın sorğusunda diqqəti cəlb edən digər maraqlı məqam da odur ki, erməni əhalisinin təqribən 30 faizi qarşıdan gələn seçkilərin ədalətli keçirilməyəcəyini bildirir. Güman ki, həmin kontingentin böyük hissəsi ümumiyyətlə seçkilərdə iştirak etməyəcək. Çünki seçkilərin şəffaf keçirilmədiyini deyən şəxsin səsvermə məntəqələrinə gələcəyini gözləmək sadəlövhlük olar. Maraqlı nüans isə həmin 30 faizin içərisində hansı siyasi qüvvələrə inamın daha çox olmasıdır.

Təcrübə onu göstərir ki, seçkilərin ədalətli keçirilməyəcəyini düşünən insanlar adətən müxalifətin tərəfdarları olur. Bu baxımdan, seçki günü müxalif mövqeli insanların səsvermə məntəqələrinə güclü axın etməyəcəyini proqnoz edə bilərik. Ümumiyyətlə, Ermənistandakı, revanşist qüvvələr demokratik seçki mühitinə xeyli yad insanlardır. Onlar daha çox güc yolu ilə hakimiyyəti devirmək təcrübəsinə istinad etməyin tərəfdarıdırlar. Bu da Paşinyan üçün əlavə üstünlükdür".

# Erməni maliyyəsindən bəhrələnən siyasi mühacirlər

***Artıq uzun müddətdir ki, özlərini Avropada gah siyasi mühacirlər, gah da mübariz insanlar kimi təqdim edən milli xainlər hələ də erməni lobbisinin xidmətində dayanaraq, canfəşanlıqla öz nökərçiliklərini davam etdirirlər. Digər tərəfdən, bu gün AXCP sədri satqın Əli Kərimli, Cəmil Həsənli, Leyla Yunus, Xədicə İsmayıl və bu kimi erməni üfunəti verən parazitlər onları sosial şəbəkələrdə “qəhrəman” edərək özlərindən lap əndrəbadi ifadələr düzüb-qoşan xain əxlaqsızlardan başqa şey gözləmək olmaz. Çünki onlar...***

## Araz Əlizadə: “Siyasi mühacirlər”in ataları da, anaları da, arvadları da, uşaqı da puldur”

### Ermənidən betər erməni olanlar...

Və Azərbaycanın uğurlu inkişafından qıcıqlanan erməni lobbisinin maliyyələşdirdiyi bu əxlaqsız və satqınlar - Emin Milli, Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rafael Piriyev, Həbib Müntəzir, Vidadi İskəndərli, Sevinc Osmanqızı, Leyla Yunus kimi ünsürlər həyasızcasına çirkin əməllərindən hələ də əl çəkmirlər. Ancaq bu, real faktordur ki, gec-tez haqqı tapdalayanların aqibəti erməni köpəklərini gözləyən taleyi yaşayacaqlar. Bu gün danışığını, fikrini cəmləşdirə bilməyən və özünü “hüquq müdafiəçisi” adlandıran Vidadi İskəndərli kimi bədbəxt və rəzillər sosial şəbəkələrdən “mitinq etməyin vaxtıdır”, “Azərbaycanda hakimiyyət devrilməlidir” çağırışlar etməklə bir daha əxlaqsızlığını, mənəviyyatsızlığını, tərbiyəsizliyini nümayiş etdirir. Çünki heç bir halda sabah hansı addımları atacaqları barədə məlumatları belə yoxdur. Bu əxlaqsız və tərbiyəsizlər idarə olunanlardır. Və anlamırlar ki, o xəyalların üstünü artıq çoxdan toz basıb. Bir də haqq nazilər, amma üzülməz. Əgər bu gün dünya ictimaiyyətinin ermənilərin törətdikləri Xocalı soyqırımını pislədiyi indiki bir vaxtda Vidadi İskəndərli, Teymurxan Orduxan, Sevinc Osmanqızı, Leyla Yunus kimi erməni qulbeçələri Avropada ermənilərə dəstək olmaları göstərir ki, onların Azərbaycan hakimiyyətinə qarşı apardığı riyakar mübarizədə milli mənafeyə xidmət edən heç nə yoxdur. Diqqət edin: ermənilərin işğal etdikləri ərazilərimizdəki tarixi abidələrimizi, azərbaycanlıların uyuduqları qəbiristanlıqları dağıtmasını bütün dünya, hətta UNESCO və İSESCO kimi mötəbər beynəlxalq təşkilatlar pislədiyi və bunu vandalizm adlandırdığı halda bu erməni xislətli əxlaqsızlavr iddia edir ki, ermənilər bizim qəbirstanlıqlarımızı dağıtmayıblar. Çünki bu erməni puluna satılanlarda qeyrət və ləyaqət axtarıb tapmaq qətiyyən mümkün deyil. Və əlbəttə ki, Orduxana haqq qazandırmaq üçün gərəkdir ki, vicdanın tam susmuş olsun. Ancaq vicdanın susduğu yerdə isə şeytan at oynadar və bu faktdan sonra Avropada oturan bu əxlaqsızların ermənidən artıq erməni olması artıq şübhə doğurmur.



### Araz Əlizadə: “Hər biri dişi çıxarılmış ilandırlar, dişləyə bilməsələr də, hürmək qabiliyyətinə malikdirlər”

ASDP sədri Araz Əlizadə “siyasi mühacirlər”lə bağlı bildirib ki, ortaya qoymadıqları nə qalıb ki, təhqir də etməyəsən: “Əminliklə deyə bilərəm ki, sosial şəbəkələrdə təhqiramiz ifadələrlə çıxış edən Vidadi İsgəndərli, Qurban Məmmədov, Orduxan Teymurxan, Sevinc Osmanqızı, Leyla Yunus və bu kimi əxlaqsızlar ortaya qoymadıqları nə qalıb ki, təhqir də etməyəsən. Görünür, bu alçaqlara laşlar az verildiyi üçün mənəviyyatsız və əxlaqsız mövqelərini ortaya qoyublar. Soruşa bilərsiniz ki, “laş” nədir? İtə verilən sıyığa laş deyirlər: “Vidadi İsgəndərli elə bilirdi ki, ömrü boyu prokurorluqda işləyib rüşvət alacaq. Q.Məmmədov da elə bilirdi ki, böyük xidmətləri olub, ona yağlı əpbəy verəcəklər. Yəni bunların hamısı pul davası aparırlar. Bir sözlə, bunları nə Azərbaycan xalqı, nə öz valideynləri, nə də ki, azərbaycanlı uşaqların gələcəyi kimi məsələlərin heç biri maraqlandırmır. “Siyasi mühacirlər”in ataları da, anaları da, arvadları da, uşaqları da puldur. Bunlar pula görə hər şeyi satarlar. Əslində, onları ermənilərlə eyniləşdirmək erməniləri təhqir etmək deməkdir. Çünki onlar ermənidən də pisdirlər. Hər biri dişi çıxarılmış ilandırlar, dişləyə bilməsələr də, hürmək qabiliyyətinə malikdirlər, onlara insan demək mümkünsüzdür. Və erməni itinin yalağında yalağlananlar bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlanmır”.

***Rəfiqə HÜSEYNOVA***

## “Ermənistana bu xəritələrin Azərbaycan verilməsi üçün təzyiq edilməlidir”

“Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının qeyri-rəsmi Zirvə Görüşündə, eləcə də digər bütün beynəlxalq tədbirlərdə Prezident İlham Əliyev Qarabağ məsələsinə hər zaman xüsusi önəm verib. Bu görüşdə də Prezident İlham Əliyev mühüm mesajlar verdi. Bu bir daha göstərir ki, hər zaman olduğu kimi Prezident İlham Əliyev üçün milli maraqlar prioritet təşkil edir və qəbul edilən bütün qərarlarda bu əsas xətt kimi götürülür”. Bunu SİA-ya açıqlamasında millət vəkili Ceyhun Məmmədov deyib.

Onun sözlərinə görə, müharibədən əvvəl də bütün yerli və beynəlxalq tədbirlərdə Prezident İlham Əliyev mütləq Qarabağ məsələsinə, Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyan məsələlərə xüsusi önəm verirdi: “Prezident çıxışında müharibədə Azərbaycanın qələbəsini təmin edən amillər, Türkiyənin Azərbaycana dəstəyi, Zəngəzur dəhlizi ilə bağlı mühüm məsələlərə də geniş toxundu.

O xüsusi vurğuladı ki, o dövr də Zəngəzurla bağlı qərarın qəbul edilməsi ümumilikdə Türkiyə ilə digər türk respublikaları arasında əlaqələrin kəsilməsi məqsədi daşıyırdı. Ancaq 44 günlük müharibədə Azərbaycanın qələbəsi və üçtərəfli anlaşmanın imzalanması bölgədə yeni reallıq yaratdı. Hazırda Azərbaycan Zəngəzur dəhlizi ilə bağlı yeni layihələr üzərində işləyir. Bu layihələr ümumilikdə bölgədə sülhün və təhlükəsizliyin təmin olunmasına, əməkdaşlığın inkişafına ciddi töhfələr verəcək.

Prezident Ermənistanın Azərbaycan tərəfinə minalarının xəritəsini verməməsi ilə bağlı məsələyə də xüsusi toxundu. Bu səbəbdən həm mülki vətəndaşlar, həm də hərbiçilər dünyalarını dəyişirlər. Bu Ermənistanın növbəti hərbi cinayətidir. Ermənistan törətdiyi bütün cinayətlərə eləcə də bu cinayətə görə cavab verməli olacaq. Ermənistana bu xəritələrin Azərbaycan verilməsi üçün təzyiq edilməlidir”.

***Ceyhun Rasimoğlu***

# Kandelaki, doğrudanmı, “utanır”?

**Gürcüstanda doğulsa da qanı erməni qanı ilə qarışıq olan Tina Kandelaki jurnalist Vladimir Poznerin Tbilisidə gürcülərin ona qarşı təşkil etdikləri aksiyadan “utandığını” bildirib. Onun sözlərinə görə, televiziya aparıcısı Gürcüstan haqqında jurnalistə qarşı çıxan insanlardan daha çox şey bilir. SİA bu barədə rus mətbuatına istinad edir.**



“...Vladimir Poznerin gəldiyi “Tbilisi” otelində baş verənlərdən utanıram. Biz, gürcülər, hər zaman qonaqpərvərliyimizlə seçilmişik. Amma belə görünür ki, qonaqpərvər xalq olduğumuza inanmırıq. İndi də görürəm ki, Gürcüstanı ürəkdən sevən bir insana qarşı biabırçı bir münasibət görmək üçün yaşamışıq”. Kandelakinin sözlərinə görə, guya Pozner Gürcüstanı çox sevir.

Qeyd edək ki, bundan bir müddət əvvəl prezidentin mətbuat katibi Dmitri Peskov Poznerin Gürcüstana səfəri ilə əlaqədar Tbilisidəki etirazlara münasibət bildirmişdi. O, Kremlin gürcü millətçilərinin ruslara qarşı təcavüzkar hərəkətlərini kəskin şəkildə qınadığını və Rusiya vətəndaşlarının bu ölkəyə səfər etməsinin təhlükəli olduğunu söyləmişdi. Maraqlıdır, Peskovun rus jurnalisti kimi təqdim etdiyi Pozner, görən özü hansı millətdən olduğunu özü bilirmi?

***Ağasəf Babayev***



**Elçin Bayramlı**

## “Azad seks” davası milli təhlükəsizlik kontekstində

**Son vaxtlar cəmiyyətimizdə zorlamalar, fahişəlik, qadın alveri, boşanmalar, həyat yoldaşına xəyanət halları sürətlə artır. Mənəvi-əxlaqı DEQRADASİYA pik həddinə yaxınlaşır. Maddi dəyərlər mənəvi dəyərlərin önünə keçib. Bəs bu tendensiya kimlərdən, nələrdən qaynaqlanır?**

Qlobal mərkəzlərdən idarə olunan qruplar cəmiyyətimizdə əxlaqsızlığı normaya çevirmək, mənəvi dəyərləri tamam məhv etmək üçün var gücü ilə çalışır. Azərbaycanda onsuz da, qeyri-rəsmi fahişəxanalar çoxdur. Sadəcə bunlar ölkəni, BÜTÖVLÜKDƏ fahişəxanaya çevirmək istəyirlər.

Alt-şüurun dəyişdirilməsinə hesablanmış filmlərdə, seriallarda, şou proqramlarda, həmçinin internet portalların yaydığı materiallarda qadın azadlığı adı altında durmadan fahişəlik, boşanmalar, nigahdankənar cinsi əlaqələr təbliğ olunur, həyat yoldaşına xəyanət etməyin yolları peşəkarcasına öyrədilir. Hamıya aydındır ki, burda ictimai, kütləvi təbliğatın böyük rolu var. Bəzi özəl televiziyalar və internet portalları cəmiyyətin bütün mənəvi-əxlaqı ehkamlarını məhv etməyi, ailə institutunu tam dağıtmağı qarşılarına məqsəd qoyublar. Bunların dediyindən belə çıxır ki, bizim cəmiyyətdə bəzi heyvanlarda olduğu kimi AZAD SEKS olmadığına görə çoxsaylı problemlər yaranır, məsələn toydan əvvəl müxtəlif oğlanlarla cinsi münasibətlərə girən qızlarla heç kim evlənmir, nəticədə fahişələr ortalıqda qalır.

Guya bu ölkədə fahişələrin bədənlərini satmasına əngəlmi var? Özü də, fahişəlik təbliğ edənlərə irad tutduqda və ictimai qınaq olduqda qara-qışqırıq salırlar ki, bəs bədən mənimdir özüm bilərəm kimə neçəyə satıram. Bəli, özün bilərsən, buna görə bizdə kimisə cəzalandırmırlar. Sadəcə bunun əxlaqsızlıq olduğunu deyirlər və haqlıdırlar da. Hər şey öz adı çağrılmalıdır. Fahişəlik etmək qadağan deyil, fahişəliyin təbliği yolverilməzdir və sən qələt edərsən bunu etdiyin yerdə. Bura sənə Fransa deyil. Bura Azərbaycandır!

Azad seks təbliğatı aparanlar, ailə həyatında ciddi problemləri olanlardır. Harda bir boşanmış qadın var, ya da arvadbaz kişi var- gəlib televiziyada, radioda, mətbuatda ictimai və fərdi əxlaq sahəsində “maarifləndirici” fəaliyyət göstərir.

Ümumiyyətlə, ölkədə qadın alverinin, narkotikanın, digər zərərli və təhlükəli halların təbliği qadağandırsa, onda fahişəliyin təbliği də qanunla QADAĞAN olunmalıdır. Mətbuat Şurası, Milli Teleradio Şurası, hüquq-mühafizə orqanları mediada mənəvi dəyərlərə təcavüzə qarşı ciddi tədbirlər görməlidir. Bunu qəti şəkildə tələb edirəm. Çünki bu, bir milli təhlükəsizliik məsələsidir. Necəmi?

Heç kəsə sirr deyil ki, MKİ (CİA) şefi Allen Dallesin SSRİ-yə qarşı “MƏHVETMƏ” planına bənzər doktrinalar hələ tam mənəvi deqradasiyaya uğramamış cəmiyyətlərə, o cümlədən Azərbaycana tətbiq edilir. Əxlaqsızlığın təbliği xüsusi mərkəzlər tərəfindən peşəkarcasına təşkil və idarə olunur. Dallesin planından mövzumuza birbaşa aidiyyatı olan bəzi detallara nəzər salaq. “...Biz bütün gücümüzü insanların AXMAQLAŞDIRILMASI və səfeh yerinə qoyulmasına yönəldəcəyik!

İnsan beynində XAOS yaradaraq, onların dəyərlərini saxtalarıyla dəyişəcəyik və onları bu SAXTA DƏYƏRLƏRƏ inanmağa məcbur edəcəyik. Necə? Biz orada öz həmfikirlərimizi, müttəfiqlərimizi tapacağıq. Məsələn, incəsənət və ədəbiyyatdan tədricən onun sosial mahiyyətini çıxaracağıq... Ədəbiyyat, teatr, kino ƏN ALÇAQ İNSANİ HİSSLƏRİ təsvir və mədh edəcək.

Biz insanların şüuruna SEKS, ZORAKILIQ, SADİZM, SATQINLIQ kultunu, bir sözlə hər cür ƏXLAQSIZLIĞI yeridən və yayan adamları dəstəkləyəcəyik...

ÇOX AZ ADAM NƏ BAŞ VERDİYİNİ BAŞA DÜŞƏCƏK. Lakin biz onları köməksiz vəziyyətə salacaq, gülüş obyektinə çevirəcəyik, onları şərləməyin və cəmiyyətin tör-töküntüsü adlandırmağın yolunu tapacağıq. Xalq əxlaqının əsaslarını təhrif edərək məhv edəcəyik.

...Biz bu yolla nəsli nəslin ardınca sarsıdacağıq. İnsanların üzərində UŞAQ, YENİYETMƏ yaşlarından işləyəcəyik, əsas stavkanı isə həmişə GƏNCLƏRƏ edəcəyik- onları mənəviyyatca korlayacaq, onlardan HƏYASIZ, HEYVƏRƏ VƏ KOSMOPOLİTLƏR düzəldəcəyik. Biz bunu bax belə edəcəyik!”.

Məncə əlavə şərhə ehtiyac yoxdur...

# Zəngəzur Türk dünyasını birləşdirən rol oynayacaq

**Moskva-Baku platformasında İnna Lisovskayanın təqdimatında yayımlanan "Moskva-Baku bu gün" analitik verilişində regionumuzda gedən proseslərlə bağlı maraqlı məsələlərə toxunub. Verilişi yazı və video formasında oxucularımıza təqdim edirik.**

İlham Əliyev: "Müharibə bitdi və tarixə çevrildi. Yeni imkanlar meydana çıxdı. Bunların arasında düşünürəm ki, ən başlıcası nəqliyyat imkanlarıdır"

### Qanlı cinayətləri unutmayaq ...

31 mart Azərbaycanda azərbaycanlıların soyqırımı qurbanlarını xatırlayırlar. 1998-ci ildə Prezident Heydər Əliyev 31 Mart 1918-ci ildə azərbaycanlıların kütləvi şəkildə öldürülməsi tarixini Azərbaycanlıların Soyqırımı Günü elan edilməsi haqda bir sərəncam imzalayıb. Sənəddə Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsindən sonra ermənilərin Azərbaycan ərazilərinə köçürülməsinə, azərbaycanlılara qarşı soyqırımı siyasətinə tarixi və siyasi qiymət verilib.

Xatırladaq ki, bugünkü tarixin həsr olunduğu hadisələr 1918-ci ilin martında Bakıda və Bakı quberniyasında baş verib. Minlərlə qurbana səbəb olan kütləvi millətlərarası qarşıdurmalar yaşanıb. Müasir Azərbaycan tarixində bu hadisələr erməni millətçiləri tərəfindən Azərbaycan xalqının soyqırımı kimi qəbul edilir. Beləliklə, 1918-ci il martın 31-dən aprelin 2-dək silahlı daşnak dəstələri tərəfindən minlərlə azərbaycanlı öldürüldü, evlər, məscidlər yandırıldı və əhalinin əmlakı talan edildi. Təkcə Bakıda qadınlar, uşaqlar və qocalar da daxil olmaqla təxminən 11.000 mülki vəhşicəsinə qətlə yetirildi.

Martın 31-də Şamaxı bölgəsində 16 mindən çox, Quba kəndlərində 2 mindən çox günahsız azərbaycanlı öldürüldü. Zəngəzur, Naxçıvan, Lənkəran, Muğan və Qarabağda yüzlərlə kənd daşnaklar tərəfindən yandırıldı.

31 martda Azərbaycanda və dünyanın bir çox ölkəsində 1918-ci ilin martında azərbaycanlıların qırğınlarının qurbanlarının anım gününə həsr olunmuş tədbirlər keçirilir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İnstaqram səhifəsində dərin kədərləndiyini və bu cür tədbirlərin heç vaxt unudulmayacağını qeyd etdiyi bir müraciət yayımlayıb.

Sitat: "Bu gün Azərbaycanlıların Soyqırımı Günüdür. 1918-ci ilin martında törədilmiş vəhşiliklər bütün insanlığa və insanlığa qarşı qanlı bir cinayətdir. Və neçə il keçsə də, etnik təmizlənmənin acısını, terror və soyqırım aktlarını, Azərbaycan xalqının məruz qaldığı amansız repressiyaları heç vaxt unutmayacağıq. Dərin bir kədər hissi ilə faciə günahsız qurbanlarının parlaq xatirəsini ehtiramla yad edirəm, Uca Allahdan bütün şəhidlərimizin ruhuna dincəlməsini diləyirəm"

### Hərtərəfli dəstək çağırışı

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, müqəddəs Ramazan ayından dərhal sonra Şuşanı ziyarət etməyi planlaşdırdığını açıqladı. Bu barədə o, dünən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilən qeyri-rəsmi zirvəsində elan edib. Türkiyə lideri çıxışı zamanı sammitdə iştirak edən ölkələri Qarabağ ərazilərinin və mədəni dəyərlərinin bərpasında Azərbaycana hərtərəfli dəstək verməyə çağırdı.

Sitat: "Türkdilli ölkələrin Qarabağdakı türk abidələrinin qorunması və dirçəldilməsində Azərbaycana dəstək verməyə davam etmələri vacibdir. Ümid edirəm ki, tezliklə, Ramazan bayramından sonra Şuşanı ziyarət edəcəyik, bu da bizim üçün başqa bir bayram olacaq "

Ərdoğan, Türkdilli ölkələrin Azərbaycanın Dağlıq Qarabağın mədəni imicini bərpa etmək səylərini dəstəkləmələrini vurğuladı. Türk liderin sözlərinə görə, bölgədəki ziyarətgahlara və memarlıq abidələrinə ciddi ziyan dəydiyindən, kilsələr və 63 məscid dağıdıldığından bu ən vacib vəzifədir.

Sitat: "44 günlük müharibə nəticəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan 30 illik işğala son verdi. Qarabağ yenidən Azərbaycana qovuşdu. Bütün məcburi köçkünlərin torpaqlarına tezliklə qayıtmasını diləyirəm"

Türkiyə Prezidenti həmçinin İlham Əliyevi bu iyun ayında Antalyada keçiriləcək diplomatik foruma dəvət etdi. Ərdoğan forumun qlobal və regional mövzularda səmimi və hərtərəfli fikir mübadiləsini asanlaşdıracağını qeyd etdi.

Azərbaycan Prezidenti İlham Əliyev də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına qatılan ölkələrin liderlərinin zirvəsində çıxış etdi. Əliyev çıxışında vurğuladı ki, Qarabağda müharibə bitdikdən sonra yeni imkanlar arasında ən vacib olanı nəqliyyatdır.

Sitat: "Müharibə bitdi və tarixə çevrildi. Yeni imkanlar meydana çıxdı. Bunların arasında düşünürəm ki, ən başlıcası nəqliyyat imkanlarıdır"

Prezident hazırda Zəngəzur dəhlizi ilə bağlı fəal iş aparıldığını söylədi.

Sitat: "Artıq qədim Azərbaycan diyarı Zəngəzur Türk dünyasını birləşdirən rol oynayacaq. Zəngəzurdan keçən nəqliyyat, rabitə, infrastruktur layihələri bütün Türk dünyasını birləşdirəcək və Ermənistan da daxil olmaqla digər ölkələr üçün əlavə imkanlar yaradacağından"

Dövlət başçısı qeyd edib ki, hazırda Ermənistanın Rusiya ilə dəmir yolu əlaqəsi yoxdur: "Bu əlaqə Azərbaycan ərazisindən keçirilə bilər. Ermənistanın da qonşu İranla dəmir yolu əlaqəsi yoxdur. Naxçıvan vasitəsilə bu əlaqə də təmin edilə bilər".

Əliyev, eyni zamanda, Azərbaycanın Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə, Orta Asiya ilə Avropa ilə əlaqə quracağını vurğuladı. "Yeni, yeni nəqliyyat dəhlizi yaradılır. Azərbaycan artıq bu işə bir başlanğıc verib.




Əminəm ki, tərəfdaş ölkələr də bu imkanlardan yararlanacaqlar"- Prezident dedi.

Xatırladaq ki, bu gün Qazaxıstanın təşəbbüsü ilə toplanan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) qeyri-rəsmi sammitinin iştirakçıları qeyri-rəsmi onlayn görüş keçiriblər. Tədbirdə Qazaxıstanın ilk prezidenti Nursultan Nazarbayev, Özbəkistan və Qırğızıstanın, həmçinin Türkmənistanın liderləri iştirak edir. Şura üzvləri ticarət-iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi məsələlərini müzakirə etdilər.

### Sülhməramlılar üçün yeni şəhərcik

Dünən məlum oldu ki, Qarabağdakı rus sülhməramlıları üçün daha bir blok-modul şəhərciyi tikilib. Bu barədə Rusiya Federasiyası Müdafiə Nazirliyi məlumat verib. Burada 250 sülhməramlı yerləşdiriləcək. Rusiya Federasiyası Müdafiə nazirinin müavini, ordu generalı Dmitri Bulqakov qəsəbənin açılış mərasimində iştirak etdi. Şəxsən yerinə yetirilən işin keyfiyyətini yoxladı. Blok-modul şəhərciyin ən qısa müddətdə istifadəyə verildiyi, beləliklə, cəmi 3 ayda Qarabağda 12 oxşar tikili yaradıldığı qeyd edildi.

Bulqakov, həmçinin Qarabağdakı Rusiya sülhməramlı kontingenti üçün bütün səyyar şəhərciklərin aprelin 5-dən gec olmayaraq istismara veriləcəyini və sülhməramlılar üçün səyyar xəstəxananın aprelin sonunadək istifadəyə veriləcəyini söylədi. Hazırda şəhərlərin tikintisində 589 hərbi inşaatçı və 45 texnika iştirak edir. Bu gün də Azərbaycan tərəfinin istəyi ilə Rusiya sülhməramlıları Suqovuşan - Vank - Kəlbəcər marşrutu ilə 175 ton ağırlığında başqa bir humanitar yük partiyasının çatdırılmasını təmin etdilər.

Eyni zamanda, ərazilərin minalardan təmizlənməsi işləri davam etdirilir. Bu günə qədər azad edilmiş ərazilərin demək olar ki, 4 milyon kvadrat metr ərazisi minalardan təmizlənib. Bu ərazilərdə 2 mindən çox tank əleyhinə və 4 mindən çox piyada əleyhinə mina aşkar edilərək təmizlənib. Bu barədə Ərazilərinin Minalardan Təmizlənməsi Agentliyi məlumat verib. Hazırda rabitə xətlərinin keçidiyi ərazilər minalardan təmizlənir. Eyni zamanda mütəxəssislər bir daha əhalini minalardan tamamilə təmizlənənə qədər azad edilmiş ərazilərə getməmələri barədə bir daha ciddi şəkildə xəbərdarlıq edirlər.

### Populyarlıq reytinqi eynidir

Nikol Paşinyanın "Mənim addımım" bloku hazırda populyarlığına görə Ermənistandakı digər siyasi qüvvələri qabaqlayır. Bunu Gallup Beynəlxalq Assosiasiyası tərəfindən 26-29 mart tarixləri arasında aparılmış telefon sorğusunun məlumatları sübut edir. Sorğuda 801 respondent iştirak etmişdir.

Tədqiqatın nəticələri çərşənbə günü keçirilən mətbuat konfransında Gallup Beynəlxalq Assosiasiyasının Ermənistandakı nümayəndəliyinin direktoru Aram Navasardyan tərəfindən təqdim edildi.

Siyasi və ictimai xadimlərə münasibətlərini 1-dən 5-ə qədər (artan qaydada) qiymətləndirmək təklif olunduqda respondentlər belə cavab verdi.

-Ermənistan Ombudsmanı Arman Tatoyan - 3,7 bal.

-Baş nazir Nikol Paşinyan - 2,7 bal

-Prezident Armen Sarkisyan - 2,4 bal

-Keçmiş prezident Robert Koçaryan - 2,1 bal

-PAP rəhbəri Qaqik Tsarukyan - 2,1 bal

-"Maariflənmiş Ermənistan"ın rəhbəri Edmond Marukyan- 1,9 bal

-Üçüncü prezident Serj Sarkisyan - 1,6 bal

-ARF təmsilçisi İşxan Saqatelyan - 1,5 bal

-Vətənin Qurtuluşu Hərəkatının lideri Vazgen Manukyan - 1,5 bal

-Vətən partiyasının rəhbəri Artur Vanetsyan - 1,4 bal.

Respondentlərin 35,5 %-i hakimiyyət orqanlarının ədalətli və şəffaf seçkilər keçirəcəyinə əmindir. 3.4 % "tezliklə deyil" versiyasına meyllidir. "Birmənalı olaraq yox" fikrini dəstəkləyənlər 29,7 %-dir.

41,2 %-i seçkilərdə iştirak etmək niyyətindədir. 15.9 % qarşıdakı seçkiləri mütləq boykot edəcək. "Gələn bazar günü seçkilər olsa kimə səs verərdiniz" sualına 31,7 % səs çoxluğu Paşinyanın blokunun- "Mənim addımım"ın adını çəkib. Respondentlərin 24,6 %-i heç kimə səs vermək istəmir.

Əvvəlki anketlə müqayisə etsək, "Mənim Addımım" blokunun reytinqi bir az- 1,4 % düşüb. Qalan qüvvələr reytinqlərini eyni səviyyədə saxlayıblar.

*Tərcümə - Elçin Bayramlı*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

2 aprel

QARABAĞ AZƏRBAYCANDIR!

## Qamburger bişirərkən edilən ən böyük səhvlər bəlli oldu



Qamburger bişirmək taktikalarını bilirsinizsə, evdə restoranda yediyiniz qamburgerdən daha ləzzətli bir şey əldə edə bilərsiniz. Evdə burger hazırlamağın ən böyük sirri köftədir. Hazır almaq əvəzinə, özünüz etsəniz bu, qamburgerə ləzzət qatacaq. Ən vacib məsələ köftəni manqalda və ya tavada bişirmədən əvvəl ətin otaq istiliyinə gəlməsini gözləməkdir.

SİA-nın dünya mətbuatına istinadən verdiyi məlumata görə, hazır köftə almaqla vaxtınıza qənaət etsəniz də, əslində bu hamburgerin ləzzətini pozan ən vacib amillərdən biridir. Köftəni hazırlayarkən çox yağlı və ya yağsız ətə üstünlük vermək də səhvdir. Çəkilmiş ətin yağlılığı 30 faiz olmalı və yaxşı yoğrulmalıdır. Bir çox insan çəkilmiş ət saxlamaq üçün yumurta və ya çörək qırıntılarından istifadə edir. Bu da yalnışdır.

Köftəyə ədviyyat qatmaqdan çəkinməməlisiniz. İstədiyiniz qədər bol ədviyyat qoyun. Xörək düzü əvəzinə daş duz istifadə edin ki, daha ləzzətli olsun. Ətə şəkil verərkən lazım olan ən vacib məqam bişdikdə həcmini itirməsidir. Bu səbəblə çiy halda normal ölçülü görünən kotlet bişdikdə kiçik görünür.

Qamburger köftələrini bişirərkən üzərinə basmayın. Köftəyə basmaq, tərkibindəki maddələrin su buraxması deməkdir. Ət qədər istifadə olunan çörəkdə böyük əhəmiyyətə malikdir. Yumşaq və qabıqlı çörək ən yaxşı seçimdir. Çörəyin tərkib hissələrini birləşdirərkən edilən səhvlərdən biri də köftələri birbaşa çörəyin üzərinə qoymaqdır. Əvvəlcə kahı, daha sonra köftə qoyulmalıdır.

Qamburger edərkən ona istədiyiniz hər şeyi əlavə etmək də edilən səhvlərdən biridir. Bu zaman o qamburger yox, qarışıq kumpir olacaq.

***Ayşən Sadıxzadə***

## Yoahim Löv "Acınacaqlı məğlubiyyətdir"



**Futbol üzrə Almaniya millisinin baş məşqçisi Yoahim Löv DÇ-2022-nin seçmə mərhələsinin 3-cü turunda Şimali Makedoniyaya (1: 2) məğlubiyyəti şərh edib.**

"Bild" nəşri xəbər verir ki, Löv məğlubiyyətin bir neçə səbəbi olduğunu vurğulayıb: "Bu, böyük bir məyusluqdur. Yorğun görünürdük. Səhv etdik, topu yavaş-yavaş irəlilədirdik. Hücumda tez-tez topu itirirdik və müdafiə kifayət qədər güclü deyildi. Acınacaqlıdır. Yavaş oynadıq, çox pis ötürmə etdik. Top itkisi və zəif mövqe oyunu səbəbindən əks-hücum təşkil edə bilmədik. Qolların reallaşması vacib bir mövzudur, amma burada sehrli bir düstur yoxdur. Son matçlarda şansları qaçırdıq, hətta bu gün də qətiyyətsiz idik".

## Haalandın atası "Barselona" nümayəndələri ilə görüşüb

Almaniyanın Dortmund "Borrusiya"sının futbolçusu Erlinq Haalandın atası Old-İnq və meneceri Mino Rayola "Barselona" nümayəndələri ilə görüşüb. Bu barədə "Sport" nəşri məlumat yayıb. Xəbərdə dünən səhər klub prezidenti Joan Laportanın sürücüsünün Rayola və Old-İnqi Barselonada görüşə apardığı bildirilib. Məlumatda o da qeyd olunub ki, bu görüş "Barselona"nı 20 yaşlı hücumçunun transferində 1 addım önə keçirə bilər.



Qeyd edək ki, Haalandı heyətinə qatmaq üçün "Real", "Mançester Siti" kimi klublar da mübarizə aparır. Meneceri Rayola isə oyunçunun gələcəyi ilə "Borussiya" rəhbərliyi ilə danışıqlar apardıqlarını söyləmişdi.

## ELAN

Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şamaxı rayon şöbəsi tərəfindən Abbasov Elşən Ləyaqət oğlunun adına verilmiş 6102196 nömrəli Hərbi bilet itdiyi üçün etibarsız sayılır.

## İlan zəhəri hansı xəstəliyə dərmandır?



**İlan kimi zəhərli heyvanlar dişlədikdə insanlar üçün ölümcül bir təhlükə yaratsa da, bu heyvanların zəhərindən bir çox xəstəliyə qarşı dərman istehsal etmək də mümkündür. Bəs bu dərmanlar necə istehsal olunur?**

SİA-nın xarici mənbəyə istinadən verdiyi məlumata əsasən, Belçikanın Liege şəhərindəki araşdırma mərkəzi, dünyadan gətirilən zəhərli heyvanları toplayır və istehsal etdikləri zəhərlərdən nümunələr götürür. Toplanan nümunələr bir sıra testlərdə istifadə olunur. Bu şəkildə şəkərli diabet, ürək xəstəlikləri, allergiya və hətta piylənməyə qarşı müalicə üsullarının tapılması hədəflənir. ALPHA Biotoksin şirkətinin baş direktoru Rudy Fourmy, Mərkəzi Amerikadan gətirilən bir kərtənkələdən zəhər çıxararkən, bu heyvanın zəhərinə yaxın bir növ diabet xəstəliyini müalicə etmək üçün bir dərman hazırlandığını söyləyib.

### Çox güclü zəhərlərin daha böyük potensialı var

Belçikanın cənubundakı bu maraqlı fermada təxminən 200 növ zəhərli heyvan var. Tədqiqatda istifadə olunan heyvanlara burada diqqətlə qulluq olunur. Əvvəllər antidot hazırlamaq üçün istifadə olunan heyvanlar indi fərqli bir funksiya qazanırlar.

Rudy Fourmy şirkətlərinin funksiyasını belə izah edir: "Əvvəlcə zəhərlərdəki maddələri təyin etməyə çalışırıq, sonra şəfa effektini tapmağa çalışırıq." çox güclü və güclü zəhərlərin dərmanlarının böyük bir potensiala sahib olduğunu vurğulayır. Avropa tədqiqat layihəsində iştirak edən elm adamları 203 heyvan növündən zəhərləri müəyyənləşdirmək üçün çox inkişaf etmiş bir metoddan istifadə edirlər. Bu tədqiqatlar zamanı 4000-dən çox yeni mini protein növü tapılıb. Müxtəlif növ zəhərlər müəyyənləşdirildikdən və ayrıldıqdan sonra çox mürəkkəb bir bioloji və sintetik prosesə məruz qalırlar.

CEA Saclay Company-dəki Kimyaçı Gilles Mourier, şəxsiyyəti müəyyənləşdirmə müddətindən sonra etdiklərini belə izah edir: ‘‘ Bu prosesin sonunda bir qatran əldə edirik. Əldə etdiyimiz bu sintetik material üzərində son prosesi aparırıq və test üçün hazır vəziyyətə gətiririk. "

### Dərman 15 ildə hazırlanır

Alınan zəhərli maddələr sistemdə seçilmiş molekulyar hədəflərlə birlikdə ekranda əks olunur. Tədqiqatçılar indi bəzi xəstəlikləri müalicə etmək üçün heyvan zəhərindən istifadə etmək mümkün olacağını deyirlər. CEA Saclay şirkətinin bir farmakoloqu Nicolas Gilles, diabet və obeziteye diqqət etdiklərini və bu xəstəliklər üçün yeni dərmanlar hazırlamaq istədiklərini söylədi. Nicolas Gilles tədqiqatların gedişatını belə izah edir: ‘‘ Kəşf və zəhərin müəyyənləşdirilməsi mərhələsi 2-3 il çəkir. Digər tərəfdən yeni dərmanların hazırlanması, sınaqdan keçirilməsi və sertifikatlaşdırılması prosesi, ticari satışa hazır olmaq üçün 10-15 il çəkir. "

Sağlamlıqdakı bu yaxşılaşmalarla yanaşı, tədqiqatçılar əvvəllər insanların qorxduğu bu zəhərli heyvanların dünyagörüşünün dəyişəcəyini düşünürlər. Digər tərəfdən, Rudy Fourmy bu qiymətləndirilməmiş məsələyə işarə edir: ‘‘ Bu heyvanların əksəriyyəti təhlükə altındadır. Bu heyvanların insan sağlamlığı üçün faydalı ola biləcəyini göstərə bilsək, onları daha yaxşı qoruya bilərik. Bu vəziyyət insan sağlamlığının inkişafına kömək edir. "

***Qönçə Quliyeva***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**